

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 20 (24.455)

*24 may 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Müstəqil, suveren, qalib AZƏRBAYCAN



107 il öncə, bu gün – 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi. Qısa dövrdə dövlətin ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi. Cəmi 23 ay ömür sürməsinə rəğmən, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərə bildi. Bununla həm də xalqımızın çoxəsrlik dövlətçilik ənənələri yeni mərhələyə qədəm qoydu.

Səhifə ⇨ 5

## Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsi Azərbaycan milli memarlığının möhtəşəm abidəsi və Şərq memarlığının incilərindən biridir. XII əsrin görkəmli Azərbaycan memarı Əcəmi Naxçıvaninin dühası ilə yaradılmış bu nadir və monumental sənət nümunəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə bütövlükdə İslam aləminin şah əsərləri sırasında fəxri yer tutur. Misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrlərdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. Möminə xatun türbəsi xalqımızın milli sərvəti kimi dövlət səviyyəsində mühafizə olunan dünya əhəmiyyətli mədəni irs nümunələri siyahısına salınmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Möminə xatun türbəsinin özünəməxsus tarixi görkəminin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması məqsədilə **qərara alıram:**

1. Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsi dünya əhəmiyyətli tarix memarlıq abidəsində bərpa və konservasiya işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ilkin olaraq 1 (bir) milyon manat vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən bərpa və konservasiya işlərinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini növbəti illərdə Azərbaycan Respublikasının dövlət büdcəsi layihələrində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 22 may 2025-ci il*

# Azərbaycan-Macarıstan:



# dost ölkələr, strateji tərəfdaşlar

Azərbaycan dövlətinin xarici siyasətində Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələrin inkişafı prioritet məqsədlərdəndir. Enerji, təhlükəsizlik və regional əməkdaşlıq sahələrində strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Macarıstan münasibətləri də bu baxımdan təkcə iki respublikanı yaxınlaşdırmır, həm də Avropanın maraqlarına xidmət etməklə qoca qitə miqyasında respublikamızın mövqeyini xeyli gücləndirir. Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbanla səmimi dostluq münasibətləri, iki ölkə arasında müntəzəm surətdə həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər, dialoqlar əməkdaşlıq üçün yeni perspektivlər açır. Azərbaycan Prezidenti Macarıstanda 2023-cü ilin yanvar ayında rəsmi, avqust ayında işgüzar, Macarıstanın Baş naziri Azərbaycanda 2023-cü ilin noyabr, 2024-cü ilin iyul və noyabr aylarında işgüzar səfərlərdə olublar. Prezident İlham Əliyevin Baş nazir Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfəri də faydalı əməkdaşlıqlara dair ətraflı müzakirələrin aparılması ilə yadda qaldı.



Azərbaycan-Macarıstan diplomatik əlaqələrinin təməli 1992-ci ildə atılıb və son illərdə BMT, ATƏT, NATO, Aİ, Şərq Tərəfdaşlığı, Vişeqrad Qrupu, Türk Dövlətləri Təşkilatı çərçivəsində iki ölkə arasındakı əməkdaşlıq beynəlxalq əhəmiyyətini xeyli artırıb. Ötən il Bakıda keçirilən COP29-da Macarıstanın ölkə prezidenti səviyyəsində deyil, istisna hal kimi Baş nazir səviyyəsində təmsil olunması da sarsılmaz dostluğun, möhkəm əlaqələrin mühüm göstəricisidir. 11 il bundan öncə, daha dəqiq desək, 2014-cü il noyabrın 11-də Budapeşt şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlıq haqqında" Birgə Bəyannamə ilə münasibətlər yüksək mərhələyə daşınıb. Tərəfdaşlıq 2023-cü ilin yanvarında imzalanan Genişləndirilmiş Strateji Tərəfdaşlığa dair Birgə Bəyannamə ilə daha da güclənib. Sənəd iki ölkə arasında təkcə ikitərəfli münasibətlərin deyil, həm də regional və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsini hədəfləyən kompleks fəaliyyət planı yaradıb. Respublikalar arasında Strateji Tərəfdaşlığın gücləndirilməsi baxımından enerji sahəsində əməkdaşlığı xüsusi diqqətə çəkmək olar. Macarıstan Azərbaycanı daim enerji sahəsində etibarlı tərəfdaş kimi görür, xüsusilə Avropa İttifaqının üzvü qismində respublikamızın qoca qitənin enerji təhlükəsizliyinin təminindəki rolunu yüksək qiymətləndirməsi olduqca mühüm amildir. Azərbaycanın təşəbbüsü ilə reallaşan, XXI əsrin meqa layihəsi sayılan Cənub Qaz Dəhlizi, bu mənada, həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığa dair mühüm siyasi, iqtisadi əhəmiyyət daşıyır, unikal platforma rolunu oynayır. Macarıstanın CQD-nin genişləndirilməsi və bu təşəbbüsə qoşulmaq niyyəti isə Azərbaycanın Avropanın enerji təminatındakı artan nüfuzunu bir daha təsdiq edir.

Ötən ildən başlayaraq Macarıstan Aİ-yə üzv kimi, Cənub Qaz Dəhlizi layihəsi vasitəsilə Azərbaycanın təbii qaz alıcısına çevrilən növbəti ölkə olub. Respublikamız bu gün, ümumilikdə, 12 ölkəyə, o cümlədən də 10 Avropa ölkəsinə mavi yanacaq ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, bu rəqəm 2022-ci ildə 11,4 milyard, 2023-cü ildə, təxminən, 12 milyard, 2024-cü ildə isə 13 milyard kubmetr təşkil edib. Ümumilikdə, 2024-cü ildə ölkəmiz xarici bazarlara 25 milyard kubmetr qaz ötürüb. Prezident İlham Əliyev mayın 20-də Macarıstana səfəri çərçivəsində bu ölkənin Baş naziri ilə məhdud və geniştərkibli görüşlərin ardından mətbuata bəyanatında əlaqələrin strateji cəhətdən möhkəmlənməsində enerji sahəsinin rolunu xüsusi olaraq diqqətə çəkib. Sitat: ***"Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur".*** Macarıstanın Baş naziri də, öz növbəsində, Azərbaycan liderinin ölkəsini təbii qazla təchiz edəcəyi fikrinə əmin olduğunu bildirib, müxtəlif sahələrə dair ikitərəfli əməkdaşlığı yüksək dəyərləndirib, Macarıstanın MVM və digər şirkətlərinin Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra biləcəklərinə dair mühüm mesaj verib.

Azərbaycan-Macarıstan əməkdaşlığında təkcə ənənəvi deyil, bərpa olunan enerjiyə dair birgə fəaliyyət də mühüm perspektivlər vəd edir. Bu xüsusda 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" əsas istiqamətləri müəyyənləşdirir. Bu saziş Avropanı "yaşıl enerji" ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağı hədəfləyib. Sözügedən nəhəng layihə Azərbaycan-Macarıstan əməkdaşlığının gücləndirilməsi baxımından da olduqca önəmlidir və hər iki ölkənin müasir çağırışlara əsaslanan hədəflərinə uyğundur. Prezident İlham Əliyev mətbuata bəyanatı zamanı bir daha Azərbaycanın böyük miqyaslı, "yaşıl enerji" gündəliyi olduğunu vurğuladı, Macarıstanla bu sahədə fəal işi yüksək qiymətləndirdi.

Cənubi Qafqaz lideri Azərbaycanla Avropa İttifaqı və NATO-nun üzvü Macarıstan arasındakı iqtisadi əlaqələr, strateji tərəfdaşlıq, dostluq qarşılıqlı hörmət, yüksək etimad prinsiplərinə əsaslanır, müxtəlif səviyyələrdə baş tutan hər rəsmi, işgüzar görüş bu əlaqələri daha da möhkəmləndirir. Ölkəmizin təşəbbüsü ilə reallaşan nəhəng nəqliyyat layihələri tərəflər arasındakı mövcud əməkdaşlığı daha da dərinləşdirir, qarşılıqlı fəaliyyətə dair yeni iqtisadi imkanlar açır. 2024-cü ilin sonuna olan göstəricilərə əsasən ölkələrimiz arasındakı ticarət dövriyyəsində 29 faiz artım müşahidə edilib ki, bu da əlaqələrin dinamik inkişafının əhəmiyyətli göstəricisidir. Ötən il Macarıstandan Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyalar 1,018 milyard ABŞ dolları təşkil edib. Bu, Macarıstanın Azərbaycanın iqtisadiyyatına olan marağını və hər iki ölkənin qarşılıqlı investisiya əlaqələrinin inkişafını göstərir.

Ümumiyyətlə, Azərbaycanla Macarıstanı bir-birinə yaxınlaşdıran, dostlaşdıran təkcə gələcəyə dair planların üst-üstə düşməsi, maraqların kəsişməsi amili deyil, eyni zamanda da oxşar coğrafi məkan, xalqların tarixi, mədəniyyətidir. Hər iki xalq öz kökünə bağlıdır, hər iki dövlət müstəqil siyasət yeritməyi bacaran, milli maraqları üstün tutan respublikalardır. Məhz bu səbəbdəndir ki, dünyada, regionda gedən ictimai-siyasi dəyişikliklər on illərdir, davam edən bu münasibətlərin yönünü dəyişdirə, kəsişən mövqeləri ayıra bilməyib. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Biz dost ölkələrik, strateji tərəfdaşıq. Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının, təxminən, eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır".***

**Nail ƏSGƏROV**

# Türk dövlətləri üçün yeni hədəflər

# Budapeşt Zirvəsi



*Mayın 21-də Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü və bu görüşdə qəbul olunmuş Bəyannamə Türk dünyasının gələcək inkişafı üçün strateji yol xəritəsi olmaqla yanaşı, ortaq türk kimliyinin möhkəmləndirilməsinə, regional və qlobal əməkdaşlıqların dərinləşdirilməsinə yönəlmiş mühüm çağırış və təşəbbüsləri əks etdirir. Dost Macarıstanın ev sahibliyi etdiyi bu görüş təşkilatın tarixində mühüm mərhələ olmaqla yanaşı, Avropa məkanında da Türk dünyasının birliyi və əməkdaşlığını nümayiş etdirmək baxımından mühüm əhəmiyyət daşıyır.*

Təməli 2009-cu ildə Qərbin Şərqə açılan qapısı Naxçıvanda qoyulmuş Türk Dövlətləri Təşkilatı türbulanslar və ciddi sınaqlarla dolu ötən dövrdə buraya üzv dövlətlərin yalnız tarixi və mədəni bağlarla deyil, eyni zamanda müasir geosiyasi, iqtisadi və təhlükəsizlik kontekstində də bir-birinə bağlı olduqlarını, onların ortaq maraqlar daşıdıqlarını bir daha sübut etmişdir. Bu baxımdan təşkilatın Avrasiyada, bütövlükdə, dünyada konsolidasiya olunmuş mühüm bir gücə çevrilərək birləşdirdiyi xalqların sahib olduğu ortaq dəyərlərin, milli kimliyin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıdığını da qeyd etmək mümkündür.

Hazırda türkdilli dövlətlər özünün qızıl əsrini yaşasa da, dünyada, xüsusən də onların sərhədlərində baş verən münaqişələr və kəsişən qlobal maraqlar türk dövlətləri arasında siyasi, iqtisadi, ekoloji, sosial, mədəni və təhlükəsizlik sahələrində əməkdaşlığın daha da genişləndirilməsini, qlobal təhdidlərə qarşı birgə sinerjiyə sahib olmasını şərtləndirir. Sınanmış dost ölkə Macarıstanın paytaxtında keçirilmiş Zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömürəliyevin imzaladığı 71 maddəlik Bəyannamədə ölkələr arasında əməkdaşlıq spektrinin daha da genişlənməsi, ortaq iqtisadi gücün əldə olunmasının daşıdığı əhəmiyyət vurğulandı. Müasir dövrün qlobal problemlərindən olan terrorizm, transmilli cinayətkarlıq və kibercinayətkarlığa qarşı birgə mübarizə sahəsində beynəlxalq hüquqa əsaslanmaqla birgə mübarizə aparmaqda qərarlı olan Türk dünyası dövlətləri regional münaqişələrin ədalətlə həllinə öz konstruktiv mövqelərini ortaya qoymaqla dəstəkləndiyini bildirirlər.

Türkdilli ölkələr coğrafi məkan kimi dünyanın mərkəzi olmaqla Avropa və Asiya arasında mühüm logistik mərkəz, eyni zamanda ənənəvi və alternativ enerji transferində mühüm tranzit rolunu da oynamaqdadır. Bununla yanaşı, ötən il ölkəmizin uğurla ev sahibliyi etdiyi COP29 tədbirində əldə olunmuş Bakı nailiyyəti hədəflərinə çatmaq üçün Azərbaycan və TDT-yə üzv olan digər türkdilli ölkələr qarşıya qoyulmuş, “yaşıl enerji”, iqlim dəyişikliyi və ətraf mühitin qorunması məsələlərində ortaq strategiyaların hazırlanmasının vacibliyini vurğulamaqla zirvənin dünyəvi problemlərin həlli baxımından da dəyərini ortaya qoydular.

Türk xalqlarının ortaq mədəniyyəti ümumbəşəri sərvət, bütün dünyanın sülh və tərəqqi naminə faydalana biləcəyi qiymətli irsdir. Bu irsin qorunması və gələcək nəsillərə ötürülməsi iradəsi Zirvə görüşündə iştirak edən liderlərin ümumi ortaq dili kimi səsləndi. Ölkələr arasında gənclər və idman sahəsində mübadilə proqramlarının genişləndirilməsi, TÜRKSOY-un təşəbbüsü ilə Qazaxıstanın Aktau şəhərinin “Türk Dünyasının 2025-ci il Mədəniyyət Paytaxtı” elan edilməsi, Novruz bayramının TDT çərçivəsində qeyd olunması və Türk Mədəniyyəti və İrsi Fondunun genişlənməsi məsələləri gələcəkdə mədəni diplomatiya kanalları kimi bütün xalqlara geniş inteqrasiya qapısı açacaqdır. Bu mənada, Nobel mükafatı laureatı Əziz Sancara təqdim olunan beynəlxalq mükafatı Türk dünyasında elm və mədəniyyətin inkişafına mühüm töhfə kimi dəyərləndirmək olar.

Müasir beynəlxalq siyasət, xüsusilə də pozulmuş dünya düzəni dövlətlərin bir-birinə bağlılığını, tarixi dostluqların daha da möhkəmləndirilməsinin önəmini ortaya çıxarmaqdadır. Bu mənada, Budapeşt Zirvəsində qəbul olunmuş Bəyannamədə üzv dövlətlərin BMT və digər beynəlxalq təşkilatlarda bir-birinin namizədliklərini dəstəkləməsi, diplomatik əlaqələrin gücləndirilməsi və ortaq maraqlara əsaslanan təşəbbüslərin koordinasiyası qərarı Türk dünyasının gələcəkdə daha aktiv və koordinasiyalı çıxış etməsi baxımından strateji əhəmiyyət daşıyır. Bu mesajın qoca qitənin coğrafi baxımdan mərkəz nöqtəsi, ev sahibi Macarıstandan verilməsi isə etibarlı dostların hər hansı konyunkturada bir-birinə həmişə sadiq qalacağının açıq nümayişi idi.

Bununla da Budapeşt Zirvəsi bir daha nümayiş etdirdi ki, Türk Dövlətləri Təşkilatı yalnız bir regional qurum deyil, həm də ortaq dəyərlərə, mədəni irsə və strateji baxışlara əsaslanan çoxölçülü əməkdaşlıq platformasıdır. Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməsi də bu prosesin davamlılığına və liderlik roluna verdiyi töhfənin göstəricisidir. Məhz bunun nəticəsində türk dövlətlərinin birliyi və həmrəyliyi həm regional, həm də qlobal çağırışlara cavab vermək üçün mühüm platforma olaraq formalaşmaqdadır.

**✍ Əli CABBAROV**




## Azərbaycan nəhəng layihələrlə TDT-nin inkişafına, güclənməsinə töhfə verir

*“Azərbaycanın xarici siyasətində Türk dünyasının vahid ideya ətrafında birləşməsinə, türk dövlətlərinin birliyinə, bərabərliyinə xidmət hər zaman prioritet məqsədlərdəndir. 16 il bundan öncə, daha dəqiq desək, 2009-cu il oktyabrın 3-də Naxçıvan Bəyannaməsi ilə yaradılan Türk Dövlətləri Təşkilatı bu baxımdan mühüm siyasi platforma rolunu oynayır. Ötən illər ərzində Azərbaycanın təşəbbüsü olduğu, bilavasitə iştirakı ilə reallaşan nəhəng enerji, nəqliyyat layihələri ilə TDT-nin nüfuzunun güclənməsinə vacib töhfələr verib. Prezident İlham Əliyevin mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirakı, görüş çərçivəsində səsləndirilən fikirlər də Azərbaycanın bu təşkilatın inkişafında necə böyük missiya daşıdığını sübut edir”.*

Bu sözləri “Şərq qapısı”na açıqlamasında Ali Məclisin deputatı Teymur Rzayev deyib.

Deputat qeyd edib ki, görüşdə qeyd olunduğu kimi, respublikamızın birbaşa iştirakı ilə həyata keçirilən Orta Dəhliz bu gün nəinki Avropa ilə Asiyanı qovuşdurur, həmçinin Türk dünyasının birliyinə xidmət edir. Bu xüsusda 2017-ci il oktyabrın 30-da istifadəyə verilən, respublikamızın böyük maliyyə imkanları hesabına reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti olduqca böyükdür. Vaxtilə bu layihənin icrasının qarşısını almağa çalışan bir sıra inkişaf etmiş ölkələr bu gün Azərbaycan ərazisindən keçən yüklərin Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə BTQ ilə daşınmasına böyük maraq göstərirlər. Artan ticarət imkanları nəzərə alınaraq 2024-cü ildə aparılan modernləşdirmə işlərindən sonra dəmir yolunun illik yükdaşıma qabiliyyəti 5 milyon tona yüksəldilib. Bir faktı da qeyd etmək yerinə düşər ki, Orta Dəhlizin əsas hissələrindən hesab olunan Bakı-Tbilisi-Qars dəmir yolu zamanında tikilməsəydi, bu gün ölkələrarası nəqliyyat əlaqələrində çatışmazlıq açıq-aşkar nəzərə çarpacaqdı və bu da, təbii olaraq, iqtisadiyyatlara təsirsiz ötüşməyəcəkdi. Bu amil özlüyündə Prezident İlham Əliyevin necə uzaqgörən və məqsədyönlü, praqmatik diplomatiya həyata keçirdiyini göstərir.

Teymur Rzayev vurğulayıb ki, ümumilikdə, ötən il Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 11 milyon ton təşkil edib. Bundan başqa, hazırda Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Bütün bunlar respublikamızın türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığının gücləndiyini və Azərbaycanın nəhəng layihələrlə TDT-nin inkişafına əvəzsiz töhfələr verdiyini göstərən əsas faktorlardandır.

“Macarıstanda keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün ən əlamətdar məqamlarından biri də birgə Bəyannamənin imzalanmasıdır. Bu mühüm dövlət sənədi bir daha göstərir ki, türk xalqlarının tarixboyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə rolu vacibdir. 71 bənddən ibarət Bəyannamə ilə dövlət başçıları TDT-nin institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər. Tərəflər türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildiriblər. Birgə bəyanatda, həmçinin Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməsi yüksək qiymətləndirilib. Qeyd etdiyimiz bütün bu və digər amillər bir daha Azərbaycanın Türk dünyasındakı mühüm rolundan, TDT-nin güclənməsi istiqamətində reallaşdırdığı layihələrin effektivliyindən xəbər verir”, – deyə Ali Məclisin deputatı əlavə edib.

## Naxçıvan Muxtar Respublikasının yeni kənd təsərrüfatı naziri kollektivə təqdim olunub



Mayın 21-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli yeni təyin olunan Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Rafail Quliyevi nazirliyin kollektivinə təqdim edib.

Ali Məclis sədrinin müavini Arzu Abdullayev Rafail Quliyevin Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri təyin edilməsi ilə bağlı Ali Məclisin qərarını diqqətə çatdırıb.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli bildirib ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda müəyyənləşdirilmiş vəzifələrin, eləcə də verilən tapşırıqların vaxtında icra olunmaması, resursların plansız və xaotik komplektləşdirilməsi muxtar respublikanın kənd təsərrüfatı sahəsində bir sıra nöqsanlarla müşahidə olunur.



Fuad Nəcəfli kənd təsərrüfatı sahəsində çatışmazlıqların aradan qaldırılması, qarşıya qoyulan vəzifələrin, verilən tapşırıqların icrası ilə bağlı nazirliyin kollektivinə müvafiq tapşırıq və tövsiyələrini çatdırıb.

Rafail Quliyev ona göstərilən yüksək etimada görə minnətdarlığını bildirib, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəyini diqqətə çatdırıb.

## “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda tədbir keçirilib



Mayın 23-də Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin təşkilatçılığı ilə “Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir” mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsi ziyarət edilib, önünə tər güllər düzülüb.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində davam etdirilən tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək tədbiri hüquqi dövlət quruculuğundakı müstəsna xidmətləri ilə yaddaqalan Ulu Öndər Heydər Əliyevin irsinə dəyərli töhfə kimi qiymətləndirib. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi davamlı şəkildə inkişaf etdirilir, Konstitusiyanın müddəaları xalqın gündəlik həyatında konkret nəticələrlə öz əksini tapır. Bu uğurların davamı olaraq ölkə üzrə genişmiqyaslı sosial-iqtisadi islahatlar həyata keçirilir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikanın planlı və davamlı inkişafını təmin edən strateji sənəddir. Proqramda infrastrukturun yenilənməsi, iqtisadi potensialın reallaşdırılması, sosial rifahın yaxşılaşdırılması və biznes mühitinin dəstəklənməsi kimi istiqamətlər ön plana çıxarılır. 2025-ci ilin yanvar-aprel aylarında Naxçıvan Muxtar Respublikasında əldə olunan sosial-iqtisadi göstəricilər həyata keçirilən siyasətin uğurla icra olunduğunu sübut edir. Belə ki, ümumi daxili məhsul istehsalı 475 milyon 460 min 400 manat təşkil edib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artım deməkdir. Əhalinin hər nəfərinə düşən ümumi daxili məhsulun 0,8 faiz artaraq 1009 manata çatması isə dövlət siyasətinin insan amili üzərində qurulduğunu bir daha təsdiqləyir. Bu göstəricilərin həm iqtisadi sabitliyin, həm də səmərəli və hüquqi əsaslara söykənən idarəetmənin nəticəsi olduğunu qeyd edən Samir Seyidəhmədli vurğulayıb ki, Naxçıvanın sabit və dayanıqlı inkişafı Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin bariz nümunəsidir.



Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov qeyd edib ki, Konstitusiya dövlətin müstəqilliyini və suverenliyini təmin etmək üçün əsas sənəddir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi təşəbbüsü ölkəmizdə hüquqi bazanın daha da möhkəmləndirilməsinə, dövlət idarəetməsində şəffaflığı artırmağa yönəlmiş strateji bir addımdır. Dövlət başçımızın rəhbərliyi ilə mühüm əhəmiyyətli iqtisadi layihələrin reallaşdırılması, digər sahələrdə müsbət inkişaf tendensiyalarının, məhkəmə-hüquq islahatlarının uğurla davam etdirilməsinin məntiqi nəticəsi olaraq ərazi bütövlüyümüz və suverenliyimiz tam şəkildə bərpa edilib. İşğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı tikinti, quruculuq, abadlaşdırma və əhalinin öz doğma yurdlarına qayıdışı həyata keçirilir. Yusif Yusifov Dövlət Statistika Komitəsi olaraq artıq Şərqi Zəngəzur və Qarabağda yaşayan əhalinin statistik göstəricilərini hazırladıqlarını qürur hissi ilə qeyd edib.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Hüseyn Bağırov Konstitusiyanın dövlətimizin siyasi və hüquqi müstəqilliyinin rəmzi, həmçinin Azərbaycan xalqının iradəsini, azad və ədalətli cəmiyyət qurmaq istəyini əks etdirən hüquqi manifest olduğunu vurğulayıb. Qeyd edib ki, bu gün işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işləri, “Böyük Qayıdış” proqramı, milli təhlükəsizlik strategiyaları suveren və güclü dövlətin real göstəriciləridir.

Tədbirdə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş videoçarx təqdim olunub.

Sonda xatirə fotosu çəkdirilib.

## Ali Məclis sədrinin birinci müavini Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri ilə görüşüb



Mayın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Cəlil Xəlilovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüş zamanı ölkəmizdə veteranlara göstərilən diqqət və qayğıdan, onların ictimai həyatdakı rolunun artırılması istiqamətində həyata keçirilən tədbirlərdən, eyni zamanda gənclərin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi ilə bağlı görülən işlərdən danışılıb. Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində veteranların sosial müdafiəsinin gücləndirilməsi daim diqqətdə saxlanılır.

Görüşdə təşkilatın fəaliyyəti və qarşıya qoyulan hədəflərdən bəhs olunub. Vətən müharibəsində qazanılan tarixi Zəfərin 5 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasından başlanılmaqla ölkəmizin digər yerlərində də tədbirlərin keçiriləcəyi qeyd edilib.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva görüşdə iştirak edib.

## Ali Məclisin növbəti plenar iclası keçirilib





Mayın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyində duran məsələləri – “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununu (ikinci səsvermə) və Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifəyə təsdiq edilməsinin müzakirəsini diqqətə çatdırıb.

Gündəlik təsdiq olunduqdan sonra Ali Məclisin yaz sessiyasının 20 fevral 2025-ci il tarixdə keçirilən iclasında “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun geniş müzakirə edilərək birinci səsverməyə çıxarıldığını və qəbul edildiyini bildirən Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər 3 aydan sonra yenidən səsverməyə qoyulmalıdır.

Gündəlikdə duran məsələ ilə bağlı Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib.

Müzakirə olunan məsələyə deputatlardan Emin Şıxəliyev, Kamil Şükürov, Təhminə Babayeva, Əziz Qasımov, Qafar Qənbərov və Xumar Məmmədova çıxış edərək münasibət bildirdikdən sonra qanun səsverməyə çıxarılaraq qəbul edilib.

Bəxtiyar Məmmədov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına uyğun olaraq Konstitusiyaya dəyişikliklər haqqında qanun Ali Məclisin sədri tərəfindən imzalandıqdan sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim ediləcək.



Gündəlikdə duran ikinci məsələnin – Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin vəzifəyə təsdiq edilməsinin müzakirəsi zamanı Ali Məclis sədrinin birinci müavini bildirib ki, Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsinə namizəd barədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2025-ci il 20 may tarixli təklifi Ali Məclisə daxil olub.

Təqdimat oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra “Rafail Cəbrayıl oğlu Quliyevin Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsinə təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı oxunub və səsə qoyularaq qəbul edilib.

Rafail Quliyev çıxış edərək göstərilən etimada görə minnətdarlıq edib, üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirəcəyini bildirib.

Bəxtiyar Məmmədov yeni vəzifəyə təyin olunması münasibətilə Rafail Quliyevi təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Ali Məclisin iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## R.C.Quliyevin Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsinə təsdiq edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Rafail Cəbrayıl oğlu Quliyev Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifəsinə təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini**

**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri,*
*21 may 2025-ci il*



# Müstəqil, suveren, qalib AZƏRBAYCAN

*(Əvvəli 1-ci səhifədə)*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il oktyabrın 15-də təsdiq etdiyi "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununa əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilib. Qanunda da qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb, 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunub, bu zaman 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə istinad edilib. Bu baxımdan ölkə Prezidentinin imzaladığı müvafiq qanunda 28 may tarixi mahiyyət və məzmununa uyğun olaraq ifadə olunub.

Bəli, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Xalq özünün istiqlal arzularını, diləklərini nəsildən-nəslə ötürdü. 1969-1982-ci illərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu, həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar, nailiyyətlər qazandı. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilmiş tədbirlər ölkəmizin müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar, möhkəm təməllər yaratdı. Azərbaycan ötən əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdi. Lakin əsrin əvvəlində olduğu kimi, bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə qarşılaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşib, ölkəmizin müstəqil dövlət olmasını istəməyən qüvvələr "erməni kartı"ndan yetərincə istifadə etməyə çalışıblar. Onların qarşısını yalnız bir tarixi şəxsiyyət kəsə bilib: fenomen insan Heydər Əliyev. Görkəmli dövlət xadimi xain planları iflasa uğradaraq tarixi qərar və mütərəqqi addımları ilə Azərbaycanı mürəkkəb vəziyyətdən çıxara bildi, müstəqilliyini qorudu və möhkəmləndirdi. Müstəqilliyi əvəzolunmaz nemət hesab edən Azərbaycan xalqının Ümummilli Liderinin qətiyyət, qürur, fəxarət saçan sözlərini bu gün hər birimiz dərin minnətdarlıq hissi ilə xatırlayırıq: ***"Biz azadıq, müstəqilik, sərbəstik. Biz heç kəsdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik. Bilirsiniz, bunun üçün, yalnız bunun üçün aylarla, illərlə əziyyət çəkmək olar. Məhz bunun üçün illərlə ac qalmaq olar. Çünki əsrlərboyu ulu babalarımız, Azərbaycanın mütəfəkkir insanları milli azadlıq, müstəqillik arzusu ilə yaşamışlar, milli azadlıq, müstəqillik üçün mübarizə aparmışlar, vuruşmuşlar, amma buna nail ola bilməmişlər. Biz buna nail olmuşuq. Bilin ki, indi bunu əlimizdə saxlamaq, qorumaq hər bir insan üçün canından da artıqdır. Mən sizə deyirəm, bunu bilin, Azərbaycanın müstəqilliyini qorumaq, saxlamaq, onu əbədi etmək mənim üçün öz həyatımdan, canımdan artıqdır".***

> **Prezident İlham ƏLİYEV:**
>
> ***"Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz, sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür".***

Ulu Öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı, Ali Məclisin Sədri kimi çalışdığı illər müstəqilliyimizin möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrimizin qorunması və gücləndirilməsində xüsusi mərhələ hesab olunur. Bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmiş Ümummilli Liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında" tarixi qərarlar qəbul olunub, üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikası Ali Məclisində qaldırılıb. Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri götürülüb, Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikası iştirak etməyib. Bütün bu qətiyyətli addımları ilə xalqını nicat yoluna çıxaran Ümummilli Lider Azərbaycanın müstəqilliyə gedən yolunda əbədiyyət günəşi kimi parlayıb, müasir tarixin parlaq səhifələrinin əbədiyaşar müəllifi olub.

Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanı parçalanmaq, məhv olmaq təhlükəsindən xilas etdi, dövlət müstəqilliyimizi möhkəmləndirdi. 2023-cü ildə Ulu Öndərin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar azad Şuşa torpağından xalqa müraciətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Məhz bu ağır dövrdə ovaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu görürdü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi".*** Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn tərəfdarı kimi sübut edib ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir.

Müstəqilliyimizin bizə verdiyi bəhrələr bu gün ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına geniş imkanlar açıb. İndi müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəvi model formalaşdırıb. Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi artıq Azərbaycanı regionun siyasi, iqtisadi, hərbi baxımdan güclü dövlətinə, əsl söz, iradə sahibinə çevirib. Elə bu gücün, iradənin nəticəsidir ki, Azərbaycan Ordusu, xalqı "dəmir yumruq" ətrafında birləşdi, 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində mənfurları tamamilə darmadağın edib 30 illik ədalətsizliyə son qoydu, əzəli torpaqları azad etdi. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror tədbirləri ilə ərazi bütövlüyümüz, suverenliyimiz təmin olundu. Beləliklə, əgər Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanı parçalanmaqdan, məhv olmaqdan xilas edib əsl müstəqilliyinə qovuşdurdusa, Prezident cənab İlham Əliyev isə ölkəmizin ərazi bütövlüyünü, suverenliyini tam bərpa edərək respublikamızın müstəqilliyinin əbədi, sarsılmaz olduğunu bütün dünyaya sübut etdi.

Tariximizin 2025-ci il səhifəsi isə həm Konstitusiyamızın 30, həm də Vətən müharibəsində qazandığımız möhtəşəm qələbənin 5 ilinin tamam olması ilə əlamətdardır, dəyərlidir. Prezident İlham Əliyevin 2024-cü il dekabrın 28-də imzaladığı Sərəncamla bu il Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan olunub, buna müvafiq silsilə tədbirlər uğurla reallaşdırılır. Qalib lider, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan beynəlxalq arenada, siyasi meydanda qələbələr qazanır, sağlam dünya naminə nəhəng layihələrə təşəbbüs göstərir, Avropa ilə Asiya arasında ticarət, enerji, nəqliyyat, mənəviyyat körpüsü salır, qoca qitənin, güclü ölkələrin etibarlı, strateji tərəfdaşına çevrilir.

Artıq ikinci ildir ki, Azərbaycan xalqı ərazi bütövlüyü, suverenliyi tam təmin olunmuş ölkənin nümayəndələri kimi Müstəqillik Gününü əsl bayram əhvali-ruhiyyəsi ilə qeyd edir. Regionda baş verən bütün siyasi, iqtisadi proseslər də göstərir ki, qalib, qüdrətli dövlət olan Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir, sarsılmazdır və gün ötdükcə bu amillər daha da güclənir. Prezident İlham Əliyevin də dediyi kimi: ***"Müstəqillik ən böyük nemətdir, ən böyük sərvətdir. Bu gün biz bütün azərbaycanlılar qürur hissi ilə qeyd edirik ki, biz, sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür".*** Konstitusion və suveren hüquqlarını tam təmin edən Azərbaycan! Qalib xalq, qalib ölkə olaraq hər zaman belə inamla, qətiyyətlə yalnız irəli addımlamaq diləyi ilə, Müstəqillik Günün mübarək!

**"Şərq qapısı"**

# Naxçıvanda “Konstitusiya və Suverenlik İli”nə həsr edilən “Kiber Suverenlik” konfransı keçirilib



Naxçıvanda Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, Milli Kibertəhlükəsizlik Mərkəzinin və “Caspel” MMC-nin əsas tərəfdaşlığı, “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” QSC və “Şərq qapısı” qəzetinin media tərəfdaşlığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr edilən “Kiber Suverenlik” konfransı keçirilib.

Konfransda əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

“Kibertəhlükəsizlik” mövzusunda videoçarx nümayiş etdirilib.

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası idarə heyətinin sədri Pənah Musayev çıxışında diqqətə çatdırıb ki, “Konstitusiya və Suverenlik İli” çərçivəsində ölkəmizdə “Kiber Suverenlik” mövzusunda keçirilən ilk konfransın Naxçıvanda baş tutması özündə dərin simvolik məna daşıyır. Çünki Naxçıvan Azərbaycanın müstəqilliyi və suverenliyi tarixində bir çox ilkin və xüsusi əhəmiyyətli mühüm qərarların verildiyi məkandır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə burada ilk dəfə Sovet İttifaqının tərkibindən çıxmaq niyyəti rəsmi şəkildə bəyan edilib, SSRİ-nin saxlanılması ilə bağlı keçirilən qeyri-qanuni referendum açıq formada boykot olunub, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra yenidən dövlət rəmzi kimi qaldırılıb. Bütün bu tarixi faktlar Naxçıvanın suverenliyimiz və milli iradəmiz naminə ön planda olduğunu bir daha təsdiq edir.

Texnologiyanın sürətli inkişafı və bütün sahələr üzrə rəqəmsallaşmaya keçidin, eyni zamanda yeni riskləri və təhlükəsizlik təhdidlərini gündəmə gətirdiyini bildirən Pənah Musayev əminliyini ifadə edib ki, konfransda aparılacaq müzakirələr kiber suverenlik anlayışının ölkəmizdə konseptual şəkildə formalaşmasına gələcək milli strategiyaların müəyyənləşdirilməsinə və bu sahədə davamlı əməkdaşlıqların qurulmasına mühüm töhfə verəcəkdir.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzinin rəisi Davud Rüstəmov çıxışında əhəmiyyət kəsb edən məlumatların sızmasına dair 2024-2025-ci illər üzrə qlobal statistikaları açıqlayıb. Qeyd edib ki, əvvəlki illə müqayisədə qlobal miqyasda 10 faiz artımın qeydə alınması və hazıradək qeydə alınan ən yüksək göstərici olması xüsusi diqqət çəkir. Bütün məlumat sızmalarının 74 faizinin səhvlər, sosial mühəndislik, daxili sui-istifadə kimi insan faktoru ilə bağlı olması bir daha keyfiyyətli kadr potensialına ehtiyacın aktuallığını göstərir.

“Oğurlanmış istifadəçi məlumatları ilə edilən kiberhücumların sayı ötən ildə 71 faiz artıb”, – deyən Davud Rüstəmov tövsiyə olunan müdafiə strategiyalarını diqqətə çatdırmaqla qlobal kibertəhdid mənzərəsində dinamikanın əsaslarını vurğulayıb.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov əmək bazarında kibertəhlükəsizlik sahəsi üzrə peşəkar kadrların hazırlanmasının vacibliyini irəli sürüb. Qeyd edib ki, Elm və Təhsil Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə təşəbbüsü ilə ölkənin aparıcı ali təhsil müəssisələrinin və müxtəlif dövlət qurumlarının nümayəndələri ilə yanaşı, dünyanın nüfuzlu universitet və şirkətlərində çalışan azərbaycanlı mütəxəssislər tərəfindən yeni tədris proqramı hazırlanıb. Proqramın hazırlanması zamanı həm dövlət, həm də özəl sektorda əmək bazarının cari tələbləri araşdırılıb və nəzərə alınıb. İnformasiya təhlükəsizliyi sahəsi ilə bağlı əmək bazarına uyğun müvafiq ixtisasların yaradılmasının vacibliyini irəli sürən rektor qeyd edib ki, ixtisaslaşmış bir sıra qurumların iştirakı və xarici mütəxəssislərin də cəlb edilməsi ilə milli kadr potensialının formalaşdırılması ali təhsil müəssisələrinin qarşısında duran mühüm öhdəliklər sırasındadır.



Konfrans panel müzakirələri ilə işini davam etdirib. Sözügedən platformalarda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik əməliyyatları mərkəzinin əməkdaşı Elvin Balacanov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin baş idarə rəisinin müavini Tural Məmmədov, Müdafiə Nazirliyi Kibertəhlükəsizlik Xidməti rəisinin müavini Fərman Məmmədov, Milli Müdafiə Universitetinin rektoru, general-mayor Gündüz Əbdülov, Elm və Təhsil Nazirliyi Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, “Caspel” MMC idarə heyətinin sədri Ceyhun Quliyev, Simbrella şirkətinin baş icraçı direktoru Seymur Məmmədov və digərlərinin iştirakı ilə “Kiber suverenlik və dövlət təhlükəsizliyi”, “Kibertəhlükəsizlik sahəsində kadr potensialı” və “Kritik informasiya infrastrukturunun təhlükəsizliyində milli həllər və yerli şirkətlərin rolu” mövzuları müzakirə edilib.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi İnformasiya və kibertəhlükəsizlik şöbəsinin rəisi Hikmət Məmmədov vurğulayıb ki, 2024-cü ildə vətəndaşlara qarşı törədilən kart fırıldaqçılığı nəticəsində 22 milyon manatdan çox zərər dəyib, 2025-ci ilin ilk 4 ayı ərzində isə bu rəqəm 6 milyon manatı keçib. Hər bir fakt üzrə təhlillər və araşdırmalar göstərir ki, kiber cinayətlər bank kartı sahiblərinin şəxsi məlumatlarının müxtəlif üsul və vasitələrlə ələ keçirilməsi nəticəsində baş verib. Bu baxımdan bir daha vurğulanıb ki, kibermakan ciddi real iqtisadi təhlükə mənbəyidir, hər kəs ictimai mövqeyindən asılı olmayaraq, diqqətli olmalıdır. Bu, xüsusilə transsərhəd kibercinayətkarlıqla mübarizədə olduqca vacibdir.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımovun il ərzində kibercinayətlərin statistikası açıqlana bilərmi, sualına cavab olaraq Daxili İşlər Nazirliyi İnformasiya və Kibertəhlükəsizlik şöbəsinin rəisi Hikmət Məmmədov kiber talama və kiberdələduzluq əməllərinin Cinayət Məcəlləsinin 30-cu fəslində nəzərdə tutulmadığından statistik məlumatın verilməsində çətinliklər yaratdığını bildirib.

Qeyd edək ki, 150-dən çox iştirakçının qatıldığı konfransda dövlət qurumlarının rəhbər şəxsləri, ali təhsil müəssisələrinin rektorları, elmi ictimaiyyətin nümayəndələri, aparıcı İT şirkətlərin rəhbər vəzifəli şəxsləri və tanınmış yerli ekspertlər iştirak edib.

Sonda konfrans iştirakçılarına, tərəfdaşlara və könüllülərə təşəkkürnamələr təqdim olunub.

## Davud Rüstəmov kibertəhdid mənzərəsinin dəyişməsinə dair əsas məqamlardan danışıb



Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzinin rəisi Davud Rüstəmov Naxçıvanda keçirilən “Kiber Suverenlik” konfransındakı çıxışında əhəmiyyət kəsb edən məlumatların sızmasına dair 2024-2025-ci illər üzrə qlobal statistikaları açıqlayıb.

Qeyd olunub ki, əvvəlki illə müqayisədə qlobal miqyasda 10 faiz artımın qeydə alınması və indiyədək qeydə alınan ən yüksək göstərici olması xüsusi diqqət çəkir.

Bütün məlumat sızmalarının 74 faizinin insan faktoru (səhvlər, sosial mühəndislik, daxili sui-istifadə) ilə bağlı olması bir daha keyfiyyətli kadr potensialına ehtiyacın aktuallığını göstərir.

“Oğurlanmış istifadəçi məlumatları ilə edilən kiberhücumların sayı ötən ildə 71 faiz artıb”, – deyən Davud Rüstəmov tövsiyə olunan müdafiə strategiyalarını diqqətə çatdırıb.

Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsində Azərbaycanda formalaşan kibertəhlükəsizlik ekosistemindən danışarkən normativ-hüquqi bazanın əhəmiyyətinə xüsusi diqqət çəkib.

## Pənah Musayev: “Kiber suverenlik mövzusunda ilk konfransın Naxçıvanda baş tutması özündə dərin simvolik məna daşıyır”



“Konstitusiya və Suverenlik İli” çərçivəsində ölkəmizdə kiber suverenlik mövzusunda keçirilən ilk konfransın Naxçıvanda baş tutması özündə dərin simvolik məna daşıyır. Çünki Naxçıvan Azərbaycanın müstəqilliyi və suverenliyi tarixində bir çox ilkin və xüsusi əhəmiyyətli mühüm qərarların verildiyi məkandır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə burada ilk dəfə sovet ittifaqının tərkibindən çıxmaq niyyəti rəsmi şəkildə bəyan edilib, SSRİ-nin saxlanılması ilə bağlı keçirilən qeyri-qanuni referendum açıq formada boykot edilib, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı 70 ildən sonra yenidən dövlət rəmzi kimi qaldırılıb. Bütün bu tarixi faktlar Naxçıvanın suverenliyimiz və milli iradəmiz naminə ön planda olduğunu bir daha təsdiq edir”.

Bu sözləri Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası idarə heyətinin sədri Pənah Musayev Naxçıvanda keçirilən “Kiber Suverenlik” konfransında deyib.

Pənah Musayev vurğulayıb ki, texnologiyanın sürətli inkişafı və bütün sahələr üzrə rəqəmsallaşmaya keçid, eyni zamanda yeni riskləri və təhlükəsizlik təhdidlərini gündəmə gətirib. Bu səbəbdən kiber suverenliyin təmin edilməsi təkcə Azərbaycanda deyil, o cümlədən inkişaf etmiş bir çox xarici ölkədə də milli təhlükəsizlik məsələsi səviyyəsinə yüksəlib.

“Əminəm ki, bu konfransda aparılacaq müzakirələr “kiber suverenlik” anlayışının ölkəmizdə konseptual şəkildə formalaşmasına, gələcək milli strategiyaların müəyyənləşdirilməsinə və bu sahədə davamlı əməkdaşlıqların qurulmasına mühüm töhfə verəcəkdir”, – deyə AKTA idarə heyətinin sədri əlavə edib.

## Ötən il SOAR sistemi üzrə alınan xəbərdarlıqların (alerts) sayında, təxminən, 2 dəfə artım müşahidə olunub

“2023-cü illə müqayisədə 2024-cü il ərzində SOAR sistemi üzrə alınan xəbərdarlıqların (alerts) sayında, təxminən, 2 dəfə artım müşahidə olunub”.

Bu sözləri Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti baş idarə rəisinin müavini Tural Məmmədov Naxçıvanda keçirilən “Kiber Suverenlik” konfransında deyib.

O qeyd edib ki, statistikaya nəzər salsaq, 2024-cü il ərzində kiberhücum cəhdlərinin analizi nəticəsində 1069 xüsusi kiberhücum indikatoru müəyyən edilərək “AzStateNet” şəbəkəsində və dövlət e-poçt sistemində bloklamaqla xüsusi hədəflənmiş, APT kiberhücumların qarşısı alınıb.

Tural Məmmədov 2023-cü illə müqayisədə 2024-cü il ərzində SOAR sistemi üzrə alınan xəbərdarlıqların (alerts) sayında, təxminən, 2 dəfə artım müşahidə olunduğunu bildirib: “Belə ki, hesabat dövründə SIEM sistemində 333 milyarddan çox loq emal olunub. SOAR sisteminə ötürülən xəbərdarlıqların orta günlük sayı 5520 olub. Bununla yanaşı, xidmətin həyata keçirdiyi kibertəhdid kəşfiyyatı nəticəsində dövlət qurumlarının informasiya sistemlərinin adlarına bənzədilmiş 110 saxta domen müəyyən edilərək onların ölkə üzrə fəaliyyəti dayandırılaraq potensial kiberhücum cəhdləri qabaqlanıb”.



Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti baş idarə rəisinin müavini vurğulayıb ki, kiber suverenliyimizin təmin edilməsi üçün ilk öncə əldə olan resursların auditi, monitorinqi və yoxlanılması kimi imkanların genişləndirilməsindən başlamaq ən doğru yanaşma olardı: “Məhz bu səbəbdən hazırda 2 istiqamət üzrə laboratoriya qururuq, bunlardan biri Bakı Ali Neft Məktəbində qurulmasını başa çatdırmaq üzrə olduğumuz İnformasiya Təhlükəsizliyi Testləri laboratoriyasıdır. Hansı ki həm milli həllərin, həm də təchiz olunmuş həllərin yoxlanılması, laborator testlərini həyata keçirəcək, o cümlədən o sahədə kadr yetişdirəcək bir laboratoriya funksiyasını daşıyacaq. Digəri isə Azərbaycan Texniki Universitetində qurulan Zərərverici analizi laboratoriyasıdır ki, orada da ölkəmizi hədəf alan xüsusi hədəflənmiş zərərvericilərin analizini həyata keçirməklə yanaşı, həm də zərərverici analizi üçün hazırda üzərində işlədiyimiz milli sandbox proqram təminatının hazırlanması və dəstəyini həyata keçirəcəkdir”.

“Məlumat üçün qeyd edim ki, xidmətimizin Zərərverici analizi laboratoriyasının hazırda istiqaməti üzrə bir sıra həlləri artıq istifadəyə verilmişdir. Onlar barədə məlumatları *mrl.cert.gov.az* informasiya ehtiyatından məlumat əldə edə bilərsiniz”, – deyə o əlavə edib.

## Ötən il vətəndaşların bank kartlarından 22 milyon manatın kiber üsulla oğurlanması ehtiyatsızlıqdır



“2024-cü il ərzində vətəndaşlara qarşı törədilən kart fırıldaqçılığı nəticəsində 22 milyon manatdan çox zərər dəyib, 2025-ci ilin ilk 4 ayı ərzində isə bu rəqəm 6 milyon manatı keçib. Hər bir fakt üzrə təhlillər və araşdırmalar göstərir ki, kiber cinayətlər bank kartı sahiblərinin şəxsi məlumatlarının müxtəlif üsul və vasitələrlə ələ keçirilməsi nəticəsində baş verib”.

Bu sözləri Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi İnformasiya və Kibertəhlükəsizlik şöbəsinin rəisi Hikmət Məmmədov Naxçıvanda keçirilən “Kiber Suverenlik” konfransında deyib.

O qeyd edib ki, kibermakan ciddi real iqtisadi təhlükə mənbəyidir, hər kəs ictimai mövqeyindən asılı olmayaraq, diqqətli olmalıdır.

DİN tərəfindən gündəlik olaraq aparılan profilaktik maarifləndirmə işi göstərir ki, əvvəlki illərdən fərqli olaraq vətəndaşın kiber savadlılığının artırılması fayda verir. Maarifləmə, əməliyyat-axtarış, əməliyyat-texniki, istintaq tədbirləri fasiləsiz davam etdirilir.

Bununla yanaşı, həmçinin beynəlxalq əməkdaşlıq əlaqələri genişlənir, kiber təhdid riskləri üzrə fəaliyyət diqqətdə saxlanılır. Fəaliyyətə uyğun olaraq INTERPOL, EUROPOL və digər beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində məlumat mübadiləsi aparılmaqla birgə əməliyyatlar həyata keçirilir. Bu, xüsusilə transsərhəd kibercinayətkarlıqla mübarizədə olduqca vacibdir.

## "Şərq qapısı" qəzeti AKTA tərəfindən təşəkkürnaməyə layiq görülüb



Mayın 21-də Naxçıvanda "Konstitusiya və Suverenlik İli"nə həsr edilən "Kiber Suverenlik" konfransı keçirilib.

Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, Milli Kibertəhlükəsizlik Mərkəzinin və "Caspel" MMC-nin əsas tərəfdaşlığı ilə keçirilən konfransda "Şərq qapısı" qəzeti media tərəfdaşı kimi iştirak edib. Peşəkar media dəstəyinə görə "Şərq qapısı" qəzeti AKTA tərəfindən təşəkkürnamə ilə təltif olunub.

## NDU-nun tələbələri Norveçdə beynəlxalq uğur qazanıb



Naxçıvan Dövlət Universitetinin tələbələri mayın 10-da Norveçin paytaxtı Oslo şəhərində keçirilən "Ən yaxşı tələbə" adlı Beynəlxalq müsabiqədə iştirak edərək uğur qazanıblar.

Prezident İlham Əliyevin 2025-ci il 4 aprel tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilən Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent, Rusiya Təbiətşünaslıq Akademiyasının (RTA) professoru Fizzə Məmmədovanın rəhbərliyi ilə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Müalicə işi ixtisası üzrə V kurs tələbələri Abdulla Əliyev və Elsunə Əliyeva "Gənc tədqiqatçı" nominasiyasında uğurla iştirak ediblər.

Tələbələr "Naxçıvan Muxtar Respublikası əhalisinin yaşamında mineral suların müalicəvi rolu" mövzusunda təqdim etdikləri elmi məqalə ilə münsiflər heyətinin müsbət rəyini alıblar. Eyni zamanda müsabiqənin digər tələblərinə – elmi məqalələrin sayı, beynəlxalq və respublika konfranslarının materialları, diplom və medallar, elmi-praktiki təcrübə mübadilələri kimi kriteriyalara da tam cavab veriblər.

Müsabiqənin yekununda Abdulla Əliyev, Elsunə Əliyeva və rəhbərləri Fizzə Məmmədova münsiflər heyətinin qərarı ilə diplomlarla təltif olunublar. Laureat diplomu almış qalib tələbələr ixtisaslaşdırılmış ali təhsil müəssisələrinə qəbul imtahanı olmadan, yaxud güzəştli şərtlərlə daxil olmaq, ən əsası isə müxtəlif sahələr – elm, mədəniyyət, incəsənət və təhsil üzrə beynəlxalq mükafat və qrantlar üçün müraciət etmək imtiyazı əldə ediblər.

Rəhbər və qaliblər 17-21 avqust tarixlərdə Fransanın paytaxtı Paris şəhərində keçiriləcək beynəlxalq Qala mükafatlandırma mərasiminə dəvət alıblar.

## Naxçıvanda "Türk mətbəxi həftəsi" çərçivəsində tədbir keçirilib





Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hər il mayın 21-dən 27-dək bütün dünyada "Türk mətbəxi həftəsi" keçirilir.

"Türk mətbəxi həftəsi" çərçivəsində mayın 22-də Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun iqamətgahında tədbir təşkil olunub. Tədbirdə dövlət, hökumət nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Türkiyənin Naxçıvandakı Baş konsulu Asip Kaya ölkəsinin zəngin ənənələrindən danışıb. Vurğulayıb ki, "Türk mətbəxi həftəsi" Türkiyənin ənənələrini, zəngin mətbəxini dünyaya tanıdan bir nümunədir.

Tədbirdə türk mətbəxinin tarixindən bəhs olunub və bu mətbəxə aid təamlar təqdim edilib.

## Yerli özünüidarəetmə orqanlarına seçilən qadınlarla və gender komissiyasının üzvləri ilə görüş



Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə yerli özünüidarəetmə orqanlarına (bələdiyyələrə) seçilən qadınlarla və gender komissiyasının üzvləri ilə görüş keçirilib.

Görüşdə Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova çıxış edərək görüşün əhəmiyyətini vurğulayıb.

"Şərur rayonu üzrə bələdiyyələrdə təmsil olunanların 40 faizi qadınlardır", – deyən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək bildirmişdir ki, yerli özünüidarəetmə orqanları cəmiyyətin gündəlik problemlərinə ən yaxın olan strukturlardır.

Bələdiyyələrdə qadınların təmsilçiliyinə dair statistik məlumatları təqdim edən komitə sədri bildirmişdir ki, Şərur rayonu üzrə 1 şəhər və 64 kənd olmaqla, ümumilikdə, 65 ərazini əhatə edən 12 bələdiyyə fəaliyyət göstərir ki, 140 nəfər bələdiyyə üzvlərinin 40 faizini qadınlar təmsil edir. Bələdiyyə sədrlərinin 33,3 faizi, müavinlərinin 16,7 faizi qadınlardır. 1 şəhər, 38 kəndi əhatə edən ərazinin bələdiyyə sədri kişi, 26 kəndi əhatə edən əraziyə isə qadın bələdiyyə sədrləri rəhbərlik edir. Komitənin əsas məqsədlərindən biri ailə institutunun möhkəmləndirilməsi, qadınların ictimai-siyasi və iqtisadi fəallığının artırılması, uşaqların hüquqlarının müdafiəsidir. Bu vəzifələrin yerinə yetirilməsində icmalar xüsusi rola malikdir. Birgə fəaliyyətin hüquqi və funksional əsası həm komitənin nümunəvi əsasnaməsində, həm də yerli özünüidarəetmə orqanlarının fəaliyyətini tənzimləyən nizamnamələrində öz əksini tapmışdır. Ramilə Seyidova icmaların həm ümumi vəzifələrini, həm də komitə ilə birgə fəaliyyət çərçivəsindəki konkret vəzifələrini aydın şəkildə vurğulayaraq bildirmişdir ki, sosial müdafiəyə ehtiyacı olan əhali qruplarının müəyyənləşdirilməsi, onların müdafiəsi, qadınların ictimai-siyasi və iqtisadi fəallığının artırılması, uşaqların hüquqlarının qorunması və cəmiyyətdə gender bərabərliyinin təşviqi fəaliyyətimizin əsas istiqamətlərindəndir. Bu fəaliyyət həm hüquqi baxımdan əsaslı, həm də sosial baxımdan zəruridir. Komitə sədri, həmçinin ailə və qadın hüquqlarının qorunması sahəsində qəbul olunmuş qanunvericilik aktları, xüsusilə də "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun bu istiqamətdə sistemli tədbirlərin həyata keçirilməsinin hüquqi əsaslarını qeyd edib.

Müvafiq komissiyalar təkcə inzibati funksiya daşımaqla kifayətlənmir, eyni zamanda cəmiyyətdə zorakılığa qarşı sıfır tolerantlıq mühitinin formalaşmasına xidmət edir. Birgə fəaliyyət və hüquqi əsasların birliyi bu komissiyaların işinin effektivliyini artırır.

Daha sonra Şərur rayonu Dizə Bələdiyyəsinin sədri Yeganə Məmmədova çıxış edərək son illərdə ölkəmizdə qadınların ictimai-siyasi həyatda, xüsusilə də yerli özünüidarəetmə orqanlarında fəallığının artmasının, bələdiyyələrə seçilmiş qadın üzvlərin artıq təkcə icraedici yox, həm də təşəbbüskar və yönverici rolda çıxış etmələrinin sevindirici hal olduğunu qeyd edib.

Sonda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin aparıcı məsləhətçisi Zərnigar Orucəliyeva təqdimatla çıxış edərək bildirmişdir ki, qadınların hərtərəfli inkişafı, təhsilə, iş imkanlarına çıxışının təmin olunması, zorakılığa qarşı mübarizə, həmçinin sosial dəstək proqramlarının hazırlanması və həyata keçirilməsi komitənin prioritet istiqamətlərindəndir.

Görüşdə bələdiyyə və gender komissiyalarının üzvləri, eyni zamanda sədr və müavinlər olmaqla, 120 nəfər iştirak etmişdir.

## Naxçıvanda "Yüksəliş" müsabiqəsinin analitik təhlil imtahanı olub



Mayın 17-də beşinci "Yüksəliş" müsabiqəsinin əyani mərhələsinin ilk imtahanı start götürüb. Analitik təhlil imtahanı 4 sessiya olmaqla, 2 gün keçirilir. İmtahanlar Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda, eləcə də Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən 153, 158, 161, 229 və 238 nömrəli, bununla yanaşı, Sumqayıt şəhərində yerləşən 1 nömrəli tam orta məktəbinin daxilində yaradılmış imtahan mərkəzlərində təşkil olunub.

Mayın 18-də isə Naxçıvanda "Yüksəliş" müsabiqəsinin analitik təhlil imtahanı bir sessiyada keçirilib. Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbdə təşkil olunan imtahan saat $10^{00}$-da başlayıb və üç saat davam edib.

Eyni zamanda xaricdə yaşayan namizədlər üçün də distant formatda, proktorinq üsulu ilə 4 sessiyadan ibarət imtahanlar təşkil edilib.

Xatırladaq ki, əyani mərhələnin birinci turu olan analitik təhlil imtahanında 7256 namizəd iştirak hüququ qazanıb.

İmtahan verbal, rəqəmsal və abstrakt təhlil olmaqla, 3 blok üzrə aparılır. Qeyd edək ki, imtahana, ümumilikdə, 3 saat vaxt ayrılıb.

Müsabiqədə ədalətli rəqabəti təmin etmək məqsədilə test sualları bir çox beynəlxalq sistemdə də tətbiq edilən T-şkala ilə hesablanacaq. T-şkalası bir çox beynəlxalq imtahanlarda (TOEFL, GMAT, SAT və s.) tətbiq olunan üsuldur. Nəticələrin hesablanmasında istifadə edilən bu üsul bütün dünyada ən qabaqcıl və ədalətli metod hesab olunur. Analitik təhlil imtahanının nəticələri imtahan bitdikdən sonra 5-7 iş günü ərzində iştirakçılara hesabat şəklində göndəriləcək.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə təsis edilib. Müsabiqənin qalibləri mentorlar tərəfindən birillik fərdi inkişaf planı ilə təmin olunur və 20 min manatlıq mükafat qazanırlar.

Sayca beşinci "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2024-cü il 18 dekabr tarixdə müvafiq Sərəncam imzalanıb.

## "Gələcəkdə daha böyük miqyaslı elmi-tədqiqat layihələrində yer almaq əsas hədəfimizdir"



Naxçıvan Dövlət Universitetinin Tibb ixtisası üzrə 2-ci kurs tələbələri Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilən "Tələbələrin və gənc tədqiqatçıların 79-cu elmi-praktiki konfransı"nda iştirak edərək I yerə layiq görülüblər. Həmin tələbələrdən Şövkət Əlisoy, Zahidə Allahverdiyeva, Zeynəb Əliyeva ilə redaksiyamızda görüşüb onların konfransla bağlı təəssüratlarını öyrəndik. Tələbələrin dediklərindən:

"Şərqin elm və mədəniyyət mərkəzlərindən biri olan Səmərqənddə beynəlxalq elmi-praktiki konfransda iştirak edərək universitetimizi layiqincə təmsil etmək tələbəlik dövrümüzün ən unudulmaz, qürurverici anlarından birinə çevrildi. Konfrans zamanı dünyanın müxtəlif ölkələrindən 35 universitetin tələbələri ilə ünsiyyətdə olma imkanı əldə etdik ki, bu da bizə yeni dostluqlar, yeni təcrübələrin qapısını açdı. Açılış konfransında rektorumuz Elbrus İsayevə "Səmərqənd Dövlət Tibb Universitetinin Fəxri professoru" diplomunun təqdim edilməsinə canlı şahid olmağımız isə qürur hissi ilə yadda qaldı".

Konfransdan professor və müəllim heyəti ilə söhbətlərimiz zamanı yeni biliklər qazanmaq, onların tövsiyələrindən yararlanmaq şansı əldə etdik. Konfrans bizə təkcə elmi təcrübə deyil, həmçinin müxtəlif mədəniyyətləri, adət-ənənələri öyrənmək imkanı yaratdı. Səmərqənd şəhərini gəzərkən abidələrin qədim diyarımız Naxçıvanın memarlıq motivləri ilə yaxınlığı şəhəri bizə daha doğma etdi. Gözoxşayan mənzərələri, tarix qoxan türbələri səfərimizi xoş bir xatirə olaraq yaddaşımıza yazdı. Hər bir küncdə tarixlə nəfəs alan Səmərqənd öz mistik aurası ilə elə bil, bizi uzaq əsrlərə aparır, elm və mədəniyyətin beşiyi olan bu torpağın ruhunu duymağa imkan verirdi.

Tələbələr bildirdilər ki, konfransda I yerə layiq görülməyimiz təsadüfi deyil. Bu uğurun arxasında dərin araşdırma və xüsusi zəhmət dayanır. 1-ci yerin elan olunduğu o an – zəhmətimizin bəhrəsini aldığımız, universitetimizin adını fəxrlə səsləndirdiyimiz an bizim üçün, sadəcə, bir nəticə deyil, böyük bir məsuliyyətin başlanğıcı oldu. Həmin anın yaşatdığı sevinc, həyəcan və qürur bizə bir daha sübut etdi ki, elm və əzmkarlıqla silahlanmış gənclər qarşılarına qoyduqları istənilən hədəfə çata bilərlər. Gələcəkdə daha böyükmiqyaslı elmi-tədqiqat layihələrində yer almaq və elmin sərhədlərini aşaraq fayda gətirəcək araşdırmalara imza atmaq başlıca hədəflərimizdəndir.

Söhbət zamanı tələbələr onu da qeyd etdilər ki, Səmərqənd yalnız daşlarda və divarlarda qalmış bir keçmiş deyil, o, bu gün də canlı şəkildə yaşadılan mədəniyyətin, elmin və sənətin şəhəridir. Səmərqənddən qəlbimizdə yalnız diplom və mükafat deyil, həm də bu qədim şəhərin unudulmaz təəssüratları və ruhumuza hopmuş gözəlliyi ilə ayrıldıq.

Biz də dünyanın 35 universitetinin tələbələri arasında adlarını qaliblər sırasına yazdıra bilmiş gənclərimizə uğur və müvəffəqiyyətlər arzu edirik!

**Bülbül QULİYEVA**

# Tarixi Zəfər yolunda strateji qalibiyyət – Günnüt zəfəri



Müasir hərb tariximizin şanlı səhifələrindən biri sayılan Günnüt əməliyyatından 7 il ötür. Azərbaycan Ordusu 2018-ci ilin mayın 20-dən 27-dək reallaşdırdığı bu əməliyyatla Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndini düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli mövqelərə yiyələndi. Aprel döyüşlərinin uğurlu davamı kimi iki il sonra əldə olunan bu nailiyyət Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin yüksəkliyindən xəbər verməklə yanaşı, İkinci Qarabağ müharibəsində qələbənin qazanılmasında da böyük rol oynadı. Tarixi Zəfərdən aylar sonra, daha dəqiq desək, 2021-ci il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyev də Günnüt əməliyyatını ordumuzun peşəkarlığının mühüm göstəricisi kimi xarakterizə etdi, böyük qələbəyə gedən yolda strateji əhəmiyyətli hərbi uğur olduğunu vurğuladı. Sitat: ***“Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. Bu yüksəkliklər imkan verdi ki, biz artıq strateji kommunikasiyalara tam nəzarət edirik və Ermənistandan Dağlıq Qarabağa gedən yola da nəzarət edirik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi. Qarşı tərəf bilir ki, bizim nəzarətimizdə olan bu kommunikasiyalar istənilən vaxt kəsilə bilər və əlbəttə, öz addımlarını buna uyğun atmalıdır”.***

Ali Baş Komandanın da qeyd etdiyi kimi, Silahlı Qüvvələrimizin həyata keçirdiyi bu uğurlu əməliyyat, ilk növbədə, Azərbaycan tərəfinə mühüm strateji üstünlük qazandırdı. Belə ki, Günnütün işğaldan azad olunması ilə birlikdə ordumuz daha əlverişli mövqelərə sahibləndi, Xunut dağı və Ağbulaq yüksəkliyi, daha sonra isə Qızılqaya dağı və Mehridağ işğaldan azad edilərək Dərələyəz mahalının Arpa kəndi nəzarət altına keçdi. Regionda cərəyan edən siyasi proseslərə təsir, 44 günlük Vətən müharibəsinin gedişi zamanı qarşı tərəfin döyüş taktikasının öyrənilməsi, kəşfiyyat məlumatlarının əldə edilməsi baxımından Qızılqaya yüksəkliyinin azad edilməsini xüsusi diqqətə çəkmək olar. 1683 metr hündürlükdə yerləşən bu yüksəkliyin ən böyük strateji əhəmiyyəti isə, sözsüz ki, İrəvan-Yeğeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna ordumuza nəzarət etmək imkanlarını yaratmasıdır. Bu hərbi müvəffəqiyyət həm də 1990-1993-cü illərdə Naxçıvanı düşmən təhlükəsindən qoruyan Ümummilli Liderimiz Heydər Əliyevin yoluna, ideyalarına sədaqətin ifadəsinə, respublikamızın bu strateji regionunun etibarlı müdafiəsinin təmininə xidmət nümunəsinə çevrildi. Həmin dövrdən etibarən Naxçıvanda yerləşən bölmələrimiz düşməni təzyiq altında saxlamaqla digər istiqamətlərdə təxribatların qarşısını vaxtında almağa nail oldular. Təsadüfi deyildir ki, birincidən fərqli olaraq, İkinci Qarabağ müharibəsi dövründə ermənilər muxtar respublikaya qarşı böyük təxribatlardan çəkindilər, kiçik hərbi həmlələrin, manipulyasiyaların isə qarşısı qətiyyətlə alındı, heç bir nəticə vermədi.

Günnüt əməliyyatı, eyni zamanda tarixi ədalətin bərpasına xidmət etdi. Təqvimi bir qədər geriyə çəkəndə ötən əsrin 90-cı illərində Şərur rayonunun Sədərək, Günnüt, Havuş və Şahbulaq kəndlərinin aramsız düşmən hücumlarına məruz qaldığını görürük. Dövrün şahidləri, soydaşlarımız yaxşı xatırlayır ki, həmin vaxt işğal edilən Şərur rayonunun Günnüt kəndində yaşayış binaları, o cümlədən bir çox sosial obyektlər dağıdıldı, qaynar həyatın hökm sürdüyü qədim, münbit yaşayış yerimiz erməni vandalları tərəfindən xarabalığa çevrildi. Kəndin yaşayış evləri ilə birlikdə məktəbi, tibb məntəqəsi, kitabxanası, eləcə də qəbiristanlığı və məscidi dağıdıldı, kənd camaatı rayonun digər yaşayış məntəqələrinə, əksəriyyəti isə Şərur rayonundakı Mahmudkəndə köçməyə məcbur qaldı. Və nəhayət, 26 ildən sonra bir yaz səhərində Şərurun Günnüt kəndinin üzərindən qara buludlar çəkildi, qədim yurd yerimiz rahat nəfəs almağa başladı, sakinlər erməni vandalizminə məruz qalan öz ata-babalarının məzarlarını ziyarət etdilər. Qısa zamanı əhatə edən əməliyyat nəticəsində Sədərək istiqamətində Şərab zavodu və ətraf ərazilər də nəzarətə götürüldü. Həmin ərazilərin azad edilməsi imkan verdi ki, ordumuzun bölmələri müdafiə məqsədilə mühəndis-istehkam işlərini daha etibarlı şəkildə möhkəmləndirə bilsinlər. Bununla da Günnüt zəfəri həm də düşmənlə bir addımlıqda yerləşən Sədərək rayonunda sakinlərin daha rahat hərəkətinə, təhlükəsiz yaşayışına, eyni zamanda azad olunan ərazilərdə lazımi təsərrüfat işlərinin görülməsinə şərait yaratdı, hektarlarla sahələr əkin dövriyyəsinə qatıldı. Ötən dövrdə əkilən məhsuldar torpaqların suvarılması üçün müasir suvarma qurğuları da işlək vəziyyətə gətirilib, artezian quyuları bərpa olunub, əraziyə yeni yol və elektrik xətləri çəkilib.

Müzəffər Ordumuz uğurlu Günnüt əməliyyatından iki il sonra isə möhtəşəm tarixi yürüşə çıxaraq böyük qələbəyə imza atdı, 30 ilə yaxın davam edən işğala son qoyuldu. Günnüt əməliyyatında böyük şücaət göstərən Naxçıvanın igid qəhrəmanları, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları missiyalarını 2020-ci il noyabrın 8-də daha böyük uğurla tamamladılar. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tarixi Zəfərin qazanılmasında muxtar respublikadan olan hərbçilərin də böyük şücaət göstərdiyini vurğuladı, təqdir etdi: ***“Günnüt əməliyyatı Naxçıvan ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının gücləndirilməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır”.***

**“Şərq qapısı”**

# Xalqımızın and yeri – Şəhidlər xiyabanı




*Tez-tez yolum Şərur şəhərində yerləşən Şəhidlər xiyabanına düşür. Sanki gül bağçasını xatırladan bu yerdə illər öncə yaşadıqlarımız xəyalımda canlanır.*

Bir vaxtlar biz hələ uşaq idik, rayonumuzda bircə əyləncə yerimiz var idi. Yaxşı xatirimdədir, bu salxım söyüdlər təzə əkilmişdi. Oradakı karusel, qatarlar biz uşaqların əylənməyə üz tutduğu yerlər idi. Boynumuzda qırmızı pioner qalstuku, əlimizdə güllər Ana heykəlinin qarşısına gəlib, “böyük Vətən” uğrunda həlak olanların xatirəsini yad edəndə haradan bilərdik ki, bura bir gün o “böyük Vətən”i yaradan və bizi 70 ildir, əsarətdə saxlayan rusların havadarı olduğu ermənilərin qanlı güllələri ilə şəhadətə yüksələn oğullara məzar yeri olacaq.

Sevinib, deyib-güldüyümüz bu yerlər anamız Azərbaycanın müstəqilliyi naminə torpaqlarımız uğrunda canından keçən igidlərimizin məzarlarının yan-yana düzüldüyü xiyabana çevriləcək. Hansı ki həmin oğulların babaları sovetlər dağılmasın deyə canından keçmişdi. Bizə “qardaş” kimi qələmə verdikləri ermənilər özləri kimi vəhşi faşistlərin qarşısında zağ-zağ əsib, qaçıb gizlənəndə bizim ər oğullarımız çiyin-çiyinə döyüşüb düşməni Bakıya yaxın buraxmayıblar. Həmin ermənilər ki illərdir, onlara ocağımızdan od, süfrəmizdən çörək, buz bulaqlarımızdan su vermişdik. Amma onlar bir qarın yemək üçün qapımızda fəhləlik etdikləri torpaqlarımıza sahib olmağa çalışdılar. Sovetlər dağılan kimi havadarlarından güc alıb ocağımıza od saldılar.

1990-cı ilin yanvar ayının 16-dan dərin bir sükut çökmüşdü hər kəsin gözlərinə. İndiyə kimi əyləncə yerimiz olan bu salxım söyüdlü park yeni bir ünvana çevrilmişdi. Şəhidlər xiyabanına... Buranın ilk sakinləri, ilk şəhidləri sinif yoldaşımın atası Məhərrəm Seyidov və onun döyüş yoldaşı Mirhəşim Seyidov oldu. Fikrət Əliyev, Əhəd Seyidov səngərdə bir ovuc torpaq düşmənə əsir düşməsin deyə canından keçdi. Ən çətini isə o idi ki, məktəbli yoldaşlarımız üçün də burada məzar qazıldı. Nəcəf Əliyev, Elşən Rzayev kimi məktəblilər elə təhsil aldığımız məktəbin yaxınlığına düşən top mərmisi ilə şəhadətə yüksəldi.

Vaxtilə uşaqlarla birgə gəzib, oyunlar oynadığımız yerdə dayanmışam. İndi lal baxışlar mənə baxır. Dəfələrlə izləmişəm bu baxışları, amma bu dəfə sanki dəyişib bu baxışlar. Qürur var bu gözlərdə, buranın yeni “sakinlərinin” – Vətən müharibəsi şəhidlərinin gətirdiyi qələbə xəbəridir, Vətən müharibəsi şəhidi Seymurun məzarı üzərindəki yaxın dostlarının Şuşadan dərib göndərdikləri xarıbülbüldür, Şuşa dağlarına yayılan “Qarabağ şikəstəsi”nin səsidir onları belə qürurlandıran. Xalqımızın vaxtilə başına gətirilən müsibətlərin qisasını alan oğullar da onlarla bir uyuyur indi bu xiyabanda. Bir-bir ziyarət edib baş əyirəm Vətən oğullarının məzarları önündə. Düşünürəm ki, vaxtilə onlar da burada uyuyan igidlərin məzarlarını and yerinə çevirib “Qisas qiyamətə qalmayacaq”, – demişdilər. Qalmadı qisasımız qiyamətə. İllər öncə Sədərəkdə canından keçib, günlərlə səngərlərdə ac-susuz qalıb, düşmənə müqavimət göstərib ona torpaq verməyən oğulların yolunu davam etdirdilər. 44 günlük Vətən müharibəsində diyarımızın sərhədlərinə bir güllə belə atmağa cəsarət etməyən düşməni öz qanında boğmağa tələsən Rüfət, Məmmədhəsən, Həsən, Zülal kimi oğullar Naxçıvandan – igidlər yurdundan Qarabağa yol alıb orada can qoyub, bir olub yurdumuzu – Qarabağımızı düşməndən azad etdilər. Onların dünyaya yumulan gözləri Qarabağımızın gözlərinə işıq verdi. İllərdir, sönən çırağımız alovlandı, azan səsinə həsrət qalan torpağımızın səması bu müqəddəs səs ilə nurlandı. Üçrəngli, ay-ulduzlu bayrağımız Azad, Vüsal, Elton, Adil kimi oğulların əllərində işğaldan azad edilən torpaqlarda dalğalandı. Onlar ən yüksək zirvəyə – şəhidlik zirvəsinə yüksəldilər, o zirvənin başında Azərbaycan Bayrağını dalğalandırdılar. O bayraq ki o enməsin deyə yüzlərlə igid öz canından keçmişdi. Və bu gün o bayraqlar şəhid məzarlarının başı üstə qürurla şəhidlərimizə keşik çəkir, onların ziyarətçilərini salamlayır. Bu həmin bayraqdır – igidlərə bəy köynəyi olan bayraq, Şuşada, Laçında, bütöv Azərbaycanın başı üzərində qürurla dalğalanan bayraq.

✍ **Ramiyə ƏKBƏROVA**

# Qədim diyarımızın tarixinə və mədəniyyətinə göstərilən qayğı

"Naxçıvan şəhərində yerləşən Möminə xatun türbəsinin bərpası və konservasiyası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Sərəncamının çox mühüm tarixi əhəmiyyəti vardır. İlk növbədə, mən ziyalılar adından ölkə Prezidenti İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Çünki ölkəmizdə bütün sahələrlə yanaşı, tarix və mədəniyyət abidələrinə də böyük diqqət yetirilir. XII əsr abidəsi olan Möminə xatun türbəsi milli memarlığımızın çox mühüm abidəsidir. Şərq memarlıq abidələrinin incisidir. Əcəmi Naxçıvani tərəfindən yaradılmış Möminə xatun türbəsi öz kompozisiya həllinə, kamilliyinə və zərifliyinə görə, bütövlükdə, İslam aləminin şah əsərləri sırasında mühüm yer tutur".



**İsmayıl HACIYEV**
***akademik***

Bu sözləri "Şərq qapısı"na müsahibəsində AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev deyib.

Akademik bildirib ki, misilsiz gözəlliyə malik türbə Azərbaycanda həmin dövrdə yüksək inkişaf etmiş mədəniyyətin və dövlətçilik ənənələrinin mövcudluğunun əyani təcəssümüdür. İlk növbədə, təbii ki, bu Azərbaycan xalqının milli sərvətidir. Ulu Öndərimiz Heydər Əliyevin də qeyd etdiyi kimi, uzun illər yüksək səviyyədə diqqət və qayğı göstərilmədiyi halda Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı bu monumental, zərif və gözəllik nümunəsi olan abidə qürurla Naxçıvan şəhərində ucalır. Şübhəsiz ki, ölkə Prezidentinin Sərəncamı abidəyə ikinci həyat bəxş edəcək.

İsmayıl Hacıyev qeyd edib ki, XX əsrin 50-ci illərində bu abidə müəyyən mənada bərpa olunsa da, lakin prosesdə lazımi səviyyədə, əsas restavrasiya və bərpa prinsiplərinə əməl olunmayıb: "Bildiyimiz kimi, həyat yoldaşı Möminə xatun dünyasını dəyişəndə Azərbaycan Atabəylər dövlətinin yaradıcısı Şəmsəddin Eldəniz onun qəbri üzərində bir memarlıq abidəsinin tikilməsi haqqında qərar verib. Sonradan elə olub ki, Şəmsəddin Eldənizin özü də dünyasını dəyişib, türbənin sərdabə hissəsində dəfn olunub. Hətta belə bir versiya da vardır ki, sonradan abidəni tamamlayan, yəni 1186-cı ilin aprel ayında abidənin tamamilə tikintisi qurtarılan dövrdə Məhəmməd Cahan Pəhləvanın özü də vəfat edib və o da burada dəfn edilib.

Ümumiyyətlə, abidə, bir sözlə ifadə etsək, zərif, monumental abidədir. Yəni Şərq aləmində yaradılan abidələr sırasında Möminə xatun türbəsinin özünəməxsus yeri və rolu vardır ki, bu da Əcəmi Əbubəkr oğlu dühasının böyüklüyündən xəbər verir. Lakin sovet ideologiyasının təsiri ilə ötən əsrin 50-ci illərində abidədə "bərpa işləri" aparılıb və sərdabə hissəsində baştağı tamamilə götürülüb, SSRİ-yə, Moskvaya aparılmışdır. Dəqiq kim tərəfindən aparıldığı bilinməsə də, lakin faktiki olaraq Naxçıvandan çıxarılmışdır".

"Minnətdarlıqla qeyd etməliyəm ki, ölkə Prezidentinin Sərəncamı ilə abidənin bərpası üçün 1 milyon manat maliyyə vəsaiti ayrılıb. Həmin abidənin restavrasiyasına xarici ölkələrdən gətirilən ən yüksək mütəxəssislər cəlb olunacaq. Beləliklə, bərpa prosesi uğurla aparılacaq və necə ki 800 ildən artıqdır ki, bu abidə yaşayır və bundan sonra da öz əzəməti, gözəlliyi, monumentallığı ilə Azərbaycan xalqının milliliyini, mənəvi dəyərlərini dünyaya təqdim edəcək" , – deyə İsmayıl Hacıyev əlavə edib.



**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

"Naxçıvanın XII əsrdə sosial-iqtisadi inkişafının nəticəsi olaraq burada xeyli memarlıq abidələri yaranıb. Bu memarlıq abidələri içərisində Möminə xatun və Yusif Küseyir oğlu türbələri xüsusilə seçilir. Bu tipli memarlıq abidələrini biz Naxçıvan Muxtar Respublikasının digər bölgələrində də görürük. Buna görə də bu cür memarlıq abidələrinin bərpa olunması, gələcək nəsillər üçün onların qorunub saxlanması olduqca mühüm əhəmiyyətə malikdir".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyev deyib.

Professor qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin Möminə xatun türbəsinin bərpası ilə bağlı imzaladığı Sərəncam bu baxımdan olduqca mühüm əhəmiyyətə malikdir: "Düşünürəm ki, bu Sərəncam gələcəkdə Naxçıvan Muxtar Respublikasının digər tarix və mədəniyyət abidələrinin də bərpası üçün bir vəsilə olacaqdır. Çünki Naxçıvan Muxtar Respublikası tarixən Azərbaycanın inkişaf etmiş regionlarından biri olub, uzun müddət öz müstəqilliyini qorumaq üçün xarici işğalçılara qarşı mübarizə aparıb. Möminə xatun türbəsi də məhz Azərbaycanın müstəqilliyini, onun inkişafını təmin edən Şəmsəddin Eldənizin zamanında inşa olunub. Buna görə də bu abidənin olduqca böyük əhəmiyyəti vardır və abidənin bərpa olunması nəsillərarası ənənənin davamı, milli irsə hörmət və ehtiram kimi olduqca təqdirəlayiq bir addımdır".



**Zeynəb QULİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

"Şərq memarlığının incilərindən olan Möminə xatun türbəsi ilə bağlı Sərəncam milli irsin qorunmasına yönəlik mühüm addımdır".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix elmləri doktoru Zeynəb Quliyeva söyləyib.

O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncam zəngin tarixi-mədəni irsimizin mühafizəsi, beynəlxalq miqyasda təbliği və gələcək nəsillərə mükəmməl şəkildə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, tarixinə və milli-mənəvi dəyərlərinə bağlı olan hər kəsi, geniş ictimaiyyəti sevindirən addımdır.

Zeynəb xanım əlavə edib ki, XII əsr Azərbaycan memarlıq sənətinin, bütövlükdə isə türk-İslam mədəniyyətinin şah əsəri olan Möminə xatun türbəsi Əcəmi memarlıq məktəbinin Şərq memarlığının çiçəklənməsində xüsusi təsir göstərmiş qiymətli sənət əsəri, eyni zamanda dünya memarlıq tarixinin nadir nümunələrindəndir.

Qeyd etmək lazımdır ki, Möminə xatun türbəsi Ümummilli Lider Heydər Əliyevin qayğısı sayəsində 1998-ci ildə UNESCO-nun Mədəni irs siyahısına daxil edilmişdir. Onun tarixi-mədəni dəyərlərimizə münasibətdə yeritdiyi siyasətin uğurlu davamı olaraq bu gün Möminə xatun türbəsinin bərpası, qorunması ilə bağlı verilmiş Prezident Sərəncamı "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycanın tarixi dövlətçilik ənənələrinin, tarixi-mədəni irsinin qorunması və əbədiləşdirilməsinə qiymətli töhfədir.

"Prezident cənab İlham Əliyevin bu Sərəncamı Naxçıvan Muxtar Respublikası "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi kollektivinin, eləcə də mədəniyyət işçilərinin sevincinə səbəb oldu".

Bu sözləri "Şərq qapısı"na müsahibəsində muzey kompleksinin bələdçisi Jalə Mirzəyeva deyib.

O qeyd edib ki, Möminə xatun abidəsi bu gün hər bir naxçıvanlının, qədim yurdumuza gələn qonaqların ən çox üz tutduqları ünvandır. Möhtəşəmliyin, zərifliyin, itirilməyən mənəvi dəyərlərin simvoluna çevrilmiş bu abidə bu gün daha qürurla başını qaldırıb tarixə, uzun illərin keşməkeşlərinə meydan oxuyur.

Qeyd edim ki, Əcəminin bu gün Şərqin ən nadir klassik memarlıq nümunələri sırasında duran Möminə xatun türbəsi 1186-cı ildə inşa olunub. Atabəy Şəmsəddin Eldənizin xanımı, Məhəmməd Cahan Pəhləvanın anası Möminə xatunun şərəfinə ucaldılan bu nadir tikilini fərqləndirən cəhət, ilk növbədə, onun yeraltı və yerüstü hissədən ibarət olmasıdır. Onu da qeyd edək ki, bu memarlıq üslubu ilk dəfə Əcəmi tərəfindən işlədilmişdir. Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley tədbirləri çərçivəsində Möminə xatun türbəsini ziyarət edərkən demişdir: ***"Düzdür, bizlər çox vaxt bu abidəni gözəl memarlıq abidəsi kimi təbliğ edirik. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması üçün qərar qəbul edə bilərdilərmi?"***



**Jalə MİRZƏYEVA**
***muzey kompleksinin bələdçisi***

Fürsətdən istifadə edib Naxçıvan Muxtar Respublikası "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksinin kollektivi adından Prezidentimiz cənab İlham Əliyevə, dövlətimizə dərin minnətdarlığımı bildirirəm. Bu Sərəncam qədim diyarımızın tarixinə və mədəniyyətinə göstərilən qayğının davamıdır. Bu da Prezidentimizin milli-mənəvi dəyərlərimizə həssas münasibətindən xəbər verir.



# “8 Noyabr Zəfəri suverenliyimizin qarantıdır” mövzusunda konfrans keçirilib



Mayın 19-da Naxçıvanda “Konstitusiya və Suverenlik İli” çərçivəsində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “8 Noyabr Zəfəri suverenliyimizin qarantıdır” mövzusunda konfrans keçirilib.

Naxçıvan Dövlət Milli Dram Teatrında keçirilən konfransdan öncə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri düzlüb.

Konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxış edərək Ulu Öndər Heydər Əliyev tərəfindən 1993-cü ildə başladılan ordu sahəsindəki islahatların Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin qazandığı 8 Noyabr Zəfərinin tarixi önəmindən danışıb.

İcra başçısı qeyd edib ki, məhz bu tarixi Zəfər Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməklə yanaşı, regionda uzunmüddətli sülh və etibarlı təhlükəsizlik üçün geniş perspektivlər açıb. Hazırda dövlətimizin işğaldan azad edilən ərazilərdə böyük abadlıq-quruculuq işləri apardığına diqqətçəkən icra başçısı, tarixi Zəfərin, bu zəfərin baş memarı Prezident İlham Əliyevin, şəhidlərimizin və qazilərimizin şücaətinin əsrlər sonra da ehtiram hissi ilə xatırlanacağını bildirib.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov, 8 Noyabr Zəfərinin Cənubi Qafqaz regionunda uzun müddətdir ki, davam edən status-kvonu köklü şəkildə dəyişdirdiyini, yeni reallıqlar yaratdığını bildirib: “8 Noyabr Zəfəri Azərbaycan hərb tarixinin ən şanlı səhifəsi, xalqımızın milli qürur günüdür. Məhz bu tarixi gündə Prezident İlham Əliyevin rəhbərliyi ilə erməni faşizmi üzərində parlaq qələbə qazanan Azərbaycan Silahlı Qüvvələri yeni tarix yazmış, uzunmüddətli erməni işğalına son qoymuşdur. 8 Noyabr Zəfəri uzun fasilədən sonra bizə ərazi bütövlüyümüzü və suverenliyimizi təmin etməyə imkan vermişdir. 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı bir nəfər kimi öz dövlətinin, öz Prezidentinin yanında yer almış, yumruq kimi birləşmiş və elliklə fədakarlıq sərgiləmişdir. Gənclərimiz Vətənin azadlığı naminə tarixdə misli-bərabəri olmayan qəhrəmanlıq nümunələri göstərmiş, Şuşa kimi strateji şəhəri yüngül atıcı silahlar və yalın əllə azad etməklə bütün dünyanı öz cəsarət və igidlikləri ilə heyrətləndirmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: ***“Biz bu zəfərə gənclərimizin yüksək vətənpərvərlik ruhu, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı, xalqımızın həmrəyliyi sayəsində nail olmuşuq. Bu gün bizim əsas missiyamız bu birliyi, bu həmrəyliyi qoruyub saxlamaq, dövlətimizin yanında olmaq, Prezidentimizin hər bir çağırışına dəstək verməkdir. İnanıram ki, qəhrəman Azərbaycan xalqı bu tarixi birliyi bundan sonra da qoruyub saxlayacaq, gənclərimiz anti-Azərbaycan qüvvələrinin hər bir təxribatının qarşısının alınmasında daim mühüm rol oynayacaq”.***

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, 44 günlük Vətən müharibəsi əlili Təbriz Zeynalov, Vətən müharibəsi əlili Mirkənan Kərimov, Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin 2-ci kurs tələbəsi, Tələbə Elmi Cəmiyyətinin sədri Yusif Mirzəzadə, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Firudin Süleymanov da çıxış edib, 8 Noyabr Zəfərinin hərbi-siyasi, tarixi-mənəvi önəmindən danışıblar. Tarixi Zəfərin suverenliyimizin qarantı olduğu vurğulanıb, dövlətimizin Qarabağda həyata keçirdiyi geniş abadlıq-quruculuq işlərinə də diqqət çəkilib, Azərbaycanın qalib lideri Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün müstəvilərdə yeni uğurlara imza atılacağına inam ifadə edilib.

# Dövlət İnvestisiya Proqramının yeni Qaydaları üzrə təlim olub



Mayın 16-da Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin birgə təşkilatçılığı ilə “Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları” mövzusunda onlayn təlim keçirilib. Təlimdə 33 dövlət orqanından 49 məsul şəxs iştirak edib.

Tədbirin açılışında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Qanunvericiliyin və proqramların icrasına nəzarət şöbəsinin müdiri Zakir Məmmədov çıxış edərək təlimin məqsədi, dövlət investisiya proqramlarının əhəmiyyəti və yenilənmiş qaydaların tətbiqi ilə bağlı məlumat verib. Təlimdə vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi qaydaları yeni redaksiyada təsdiq olunub.

Yeni qaydalar çərçivəsində dövlət investisiya layihələrinin planlaşdırılması, maliyyələşdirilməsi, icrası, monitorinqi və nəticələrinin qiymətləndirilməsi üzrə mexanizmlər, standartlar və prosedurlar təkmilləşdirilib. Eyni zamanda layihələrin seçimi və prioritetləşdirilməsində iqtisadi səmərəlilik, sosial təsir və dayanıqlılıq kimi əsas prinsiplərin nəzərə alınması tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Təlimdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Dövlət İnvestisiyaları şöbəsinin müdir müavini İlkin Quliyev və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin İnvestisiyalar və monitorinq şöbəsinin sektor müdiri Nicat Həşimov tərəfindən yeni qaydalar çərçivəsində layihə konsepsiya sənədinin hazırlanması, ilkin texniki-iqtisadi əsaslandırma və texniki-iqtisadi əsaslandırma mərhələləri, investisiya layihələrinin tərtibi və qiymətləndirilməsi, eləcə də proqrama daxil edilən layihələrin icrasının monitorinqi və qiymətləndirilməsi üzrə metodoloji yanaşmalar barədə ətraflı təqdimatlar keçirilib, iştirakçılara aidiyyəti izahlar verilib.

Təlimin sonunda mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılıb və fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, belə təlimlərin təşkili Dövlət proqramlarının icrasına məsul olan qurum əməkdaşlarının bilik və bacarıqlarının artırılmasına, eyni zamanda icra mexanizmlərində vahid yanaşmanın formalaşdırılmasına xidmət edir.

# Qədim məhəllələrimiz arxiv sənədlərinin dili ilə



***Ən qədim insan məskənlərindən biri olan, tarixin izlərini üzərinə həkk etmiş, min illərin sınağından alnıaçıq, üzüağ çıxan doğma Naxçıvan qədim məhəllələri ilə də şöhrət tapmış, bəzi məhəllələr artıq mövcud olmasa da, hələ də unudulmamışdır. Tarixi məhəllələri araşdırarkən bir zamanlar var olan bu yerlərin sehrinə dalır, həmin yerlər haqqında daha çox məlumat əldə etməyə tələsirik. Bu yolda bizə işıq olacaq əsas məlumatlar arxiv materiallarında əksini tapdığından üz tuturuq Dövlət Arxiv İdarəsinə. Qədim məhəllələr haqqında arxiv sənədləri ilə bizi Dövlət Arxiv Fond sənədlərindən istifadə və publikasiya şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Zülfiyə İsmayılova tanış edir.***

Hər sözündən, hər cümləsindən tarixin iyi gələn sənədləri vərəqlədikcə sanki qədim məhəllələr gözlərimiz önündə yenidən canlanır, əslimizinnəslimizin yaşadığı bu yerlər bizim üçün daha da doğmalaşır. Dövrün tələbinə görə rus dilində çap edilmiş bu sənədlərdən görünür ki, hələ 1831-ci ildə Naxçıvanda əsas 4 böyük məhəllə olmuşdur. Bunlar Sarvanlar, Şahab, Əlixan və Qurdlar məhəllələri idi. Əvvəlki yazılarda bu məhəllələr haqqında geniş məlumat verildiyindən bu dəfə tarixən mövcud olmuş digər məhəllələr haqqında araşdırma aparmağa üstünlük veririk. Sənədlərdə Oruc, Köhnəqala, Xoşulu, Əlixan, Çaparxan, Ziyilarx, Bilice, Xoy, Qala, Təzəkənd, Cığatay, Anbar və sair bu kimi məhəllə adları öz əksini tapıb.

Öyrənirik ki, Naxçıvan şəhərinin vaxtilə 45 ailənin məskunlaşdığı ən qədim məhəllələrindən biri Cığatay məhəlləsi olmuşdur. Məhəllənin salınma tarixi XIII əsrə təsadüf edir. Həmin dövrdə monqollar Azərbaycanı işğal etdiyindən Hülakülər sülaləsi Azərbaycanda hakimiyyətə gəlmiş və nəticədə, Azərbaycana gələn monqolların arasında bir sıra türkdilli tayfalar, o cümlədən cığataylar da olmuşlar. Monqolların Naxçıvandan çəkilməsindən sonra Azərbaycana gəlmiş cığataylar Kəngərlilərin tərkibinə qarışmış, şəhərin müəyyən hissəsini özləri üçün yaşayış yeri seçmiş və orada məskunlaşmışdılar.

Digər bir qədim məhəllə isə “Çaparxan məhəlləsi” adlanırdı ki, bu məhəllənin adının “çapar” sözü ilə əlaqədar olduğu güman edilir. Məhəllənin bu cür adlandırılmasına səbəb keçmişdə çaparların, qasidlərin çoxunun bu məhəllədə yaşaması idi. Həmçinin məhəllənin ilkin adının “Çaparxana” olduğu da deyilir. Sonrakı dövrdə Naxçıvan şəhərində yaradılmış ilk poçt məntəqəsi də məhz Çaparxan məhəlləsində yerləşmişdir. Sənədlərdə burada 40 ailənin yaşadığı əks olunub.

Mənbələrdə Xoylu və ya Xoşulu adı ilə qeyd olunan qədim məhəllə – Naxçıvan şəhərində, XVIII əsrin axırlarında Güney Azərbaycanın Xoy şəhərindən köçüb gələrək Əcəmi seyrəngahının bazar səmtində məskunlaşanlar tərəfindən salınmışdır. Burada 35 Kəngərli ailəsinin yaşadığı və Qızlar bulağından başlayaraq Xan dikinin aşağısının həmin məhəllə əraziləri olduğu bildirilir. Məhəllə əhli, əsasən, göyərti əkini ilə məşğul olar, Bazar çayı üstündəki su dəyirmanlarını işlədərdi.

Başqa bir məhəllə Məmməd Cəfərin “Xatirələr” memuarında da adı keçən Anbar məhəlləsi idi ki, bu məhəllənin adı XVII əsrə aid olan sənədlərdə çəkilmişdir. Belə ki, bazara gələn kəndlilər və Yaxın Şərq ölkələrindən gələn tacirlər satacaqları malları bu məhəllədə yerləşən anbarlara yığırdılar. Ona görə də məhəllə “Anbar məhəlləsi” adlanırdı.

Ərəbcə “bucaq” mənasını daşıyan, fars mənbələrində isə “müqəddəs yer” anlamını ifadə edən Zaviyə məhəlləsi də qədim ünvanlar cərgəsindədir. Hətta bu məhəllədə yerləşən XVII-XVIII əsrlərin memarlıq quruluşunun nümunəsi olan Zaviyə mədrəsəsi hazırda həmin ərazidə Heydər Əliyev prospekti ilə “Təbriz” küçəsinin kəsişdiyi yerdə qalmaqdadır.

Binaya ilk dəfə daxil olarkən foyedə asılmış Ulu Öndər Heydər Əliyevin sözləri diqqəti cəlb edir: ***“Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir. İkincisi də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir”.*** Bu isə arxiv məlumatlarının necə önəmli olduğunu bir daha təsdiq edir. Bu gün bu sənədlər vasitəsilə ulu Naxçıvanın seyrinə çıxıb, bir-bir qədim məhəllələri gəzdik. Adlarını sadalamadığımız məhəllələr çox olsa da, ümid edirik ki, bu məhəllələrin də tarixi araşdırılacaq.

**Türkanə ƏSƏDOVA**

# “Rayonların tarixi” silsiləsi AMEA Naxçıvan Bölməsinin uğurudur

*AMEA Naxçıvan Bölməsində “Babək rayonunun tarixi” və “Şahbuz rayonunun tarixi” kitablarının təqdimatı keçirilib.*



Tədbiri giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq rayonların tarixinin sistemli şəkildə tədqiq olunmasının milli tarix elmi üçün əhəmiyyətindən bəhs edib. Akademik qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının inzibati ərazi bölgüsünə daxil olan rayonların ən qədim dövrlərdən günümüzədək tarixi, sosial-iqtisadi və mədəni inkişafı hərtərəfli araşdırılmış, monoqrafik tədqimatda nəşr olunmuşdur. Şərur, Culfa, Kəngərli, Ordubad, Sədərək, Babək və Şahbuz rayonlarından bəhs edən 7 monoqrafiya, ümumilikdə, 12 müəllifin elmi axtarışlarının və səmərəli tədqiqatlarının nəticəsidir. Bu, bütövlükdə, AMEA Naxçıvan Bölməsinin uğurudur.

Təqdimatda Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş elmi işçisi, tarix elmləri doktoru, dosent Zeynəb Quliyeva “Babək rayonunun tarixi haqqında sanballı mənbə” mövzusunda məruzə edib.

Alim bildirib ki, “Babək rayonunun tarixi” adlı monoqrafiya AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli və tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin müəllifliyi ilə nəşr olunub.

Zeynəb Quliyeva kitabı əhatə etdiyi məsələlər üzrə şərh edib, maraqlı cəhətləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, dosent Toğrul Xəlilov “Şahbuz rayonunun tarixi” əsəri haqqında “Söz” mövzusunda məruzə edib.

Tədbirin sonunda müəlliflər adından çıxış edən Asəf Orucov və İlhami Əliyev əsərlərin hazırlanma prosesində apardıqları elmi-statistik təhlillərdən danışıblar, kitabların nəşrində və təqdimatın keçirilməsində əməyi olanlara minnətdarlıq ediblər.

# Su ehtiyatlarının idarə edilməsi kontekstində təbii suların kəmiyyət və keyfiyyət göstəriciləri

***İstənilən ölkənin su ehtiyatları onun sosial, mədəni-estetik və gigiyenik ehtiyaclarını qarşılayan, iqtisadiyyatının fəaliyyətini təmin edən strateji amillərdən biridir. Su təchizatı mənbələrinin vəziyyəti və içməli suyun keyfiyyəti isə əhalinin sağlamlığına birbaşa təsir göstərir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada mövcud əhalinin xəstəliklərinin 80 faizi içməli suyun qeyri-qənaətbəxş keyfiyyəti, sanitariya-gigiyena və ekoloji təminat normalarının pozulması ilə bağlıdır.***



Muxtar respublikanın su təchizatında yeraltı suların xüsusi çəkisi çox böyükdür. Bu sular təbii filtrasiya əldə etdiyinə görə, süxur və minerallarla zəngin olan torpaq təbəqələrindən süzülərək orqanizmə lazım olan maddələri də torpaqdan almış olur. Şəxsi həyətlərdə istifadə edilən quyu suyunun keyfiyyətinə və təmizliyinə zəmanət vermək tamamilə mümkün olmasa da, sənaye və tikinti obyektlərinin olmadığı ərazilərdə, yaşıllıq və meşə sahələrində, eləcə də sıx məskunlaşmış avtomagistrallardan uzaq yerlərdə və kəndlərdə quyu suları öz ilkin keyfiyyətlərini qoruyub saxlayır. Quyu suları çirklənmə baxımından çox həssasdır, torpağa düşən hər şey: nitratlar, nitritlər, səthi aktiv maddələr, pestisidlər və ağır metallar quyu suyuna keçə bilir. Quyu suları bol yağıntı zamanı səth suları vasitəsilə də çirklənə bilir. Gübrələrin aktiv elementləri triadası: yəni azot, fosfor və kalium da quyu sularını çirkləndirə bilir. Son iki element, demək olar ki, torpağın gil və humus komponentləri ilə çirklənmək qabiliyyətinə malikdir; buna görə də onlar yalnız yoxsul, qumlu torpaqları çirkləndirirlər.
Əsas çirkləndirici element isə bütün ion formalarında azot olaraq qalır: nitrat ionu, nitrit ionu və ammonium ionu. Bu ionlara malik mənbələr nitrat gübrələri və ya selitrlər, ammonyaklı su, sidik cövhəri (karbamid), peyin və kompostlardır.

Yüksək qatılıqlı nitratlara malik su içmək onkoloji xəstəliklər riskini də bərabərində gətirir. Xatırladaq ki, içməli suda nitrat ionlarının yol verilən miqdarı – 45 mg / l-dir. Kalium xloriddən ibarət olan ən çox yayılmış kalium gübrəsi isə bitkilər üçün zəruri kalium elementini onlara çatdırsa da, ikinci xlor elementini torpaq zəif mənimsədiyinə görə qrunt sularını, o isə, öz növbəsində, quyu sularını çirkləndirir. Buna görə də ərazidə istifadə edilən mineral və üzvi gübrələrin miqdarı ehtiyatla seçilməli, torpağın tərkibi və vəziyyəti nəzərə alınmalıdır. Eyni zamanda ərazidəki quyuların suyunun keyfiyyətinə daim nəzarət olunmalıdır.

Adətən, bakterial çirklənmə spesifik kimyəvi göstəricilərlə müşayiət olunur: bioloji oksigen istehlakında üzvi maddələrin miqdarı və azot tərkibli

ionların qatılıqları artır. Bu səbəbdən şəxsi təsərrüfatlarda istifadə edilən quyu sularının tərkibi ildə ən azı iki dəfə kimyəvi və bakterioloji analiz edilməli, içmək üçün yararlılıqları müntəzəm yoxlanılmalıdır.

Şərur-Sədərək bölgəsinin bir çox yaşayış məntəqələri əhalisinin suya olan tələbatı artezian suları vasitəsilə ödənilir. Bu sular nisbətən təmiz və xoş dada malik olub əkin sahələrinin və əhalinin su təchizatında geniş istifadə edilir.

Artezian suları yerin dərin qatlarından filtrasiya edərkən regionda mövcud ekoloji vəziyyətin təsirinə və mikroorqanizmlərin çirkləndirmələrinə məruz qalmır. Bununla belə bəzi kimyəvi maddələrin və müxtəlif çirkləndiricilərin müəyyən qatılıqları ilə bağlı problemlər yaranmaması üçün suyun təmizliyinə ciddi nəzarət edilməlidir.

Ordubad və Şahbuz rayonları ərazisindəki yeraltı sularda qeyri-üzvi duzların qatışıqları yoxdur, xlorid və sulfat ionlarının qatılıqları aşağıdır. Bu sular daha yumşaq və içmək üçün yararlıdır.

Naxçıvan Muxtar Respublikası əhalisinin su təminatında əsas məsələlərdən biri suyun keyfiyyəti ilə bağlıdır. Ona görə də aparılan regional işlər böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən kompleks tədbirlər – təmizləyici su qurğuları və kanalizasiya sisteminin yenidən qurulması, mərkəzləşmiş su təchizatı sisteminin yaradılması və sairdən ibarətdir. Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi, kanalizasiya sisteminin yenidən qurulması istiqamətində Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi fəaliyyət göstərir; Naxçıvan şəhərində 220,6 kilometr uzunluğunda içməli su xətləri çəkilmişdir. Bu kompleks Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektlərini fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin etməyə imkan verir. Təmizləmə prosesində ozon və duzdan istifadə olunması isə suyun insan sağlamlığı üçün yararlılığına zəmanət verir. Sutəmizləyici kompleksdə yeni tətbiq olunan nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq sudakı bütün zərərli mikrobları tutub saxlayır. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlorla zərərsizləşdirilməsinə ehtiyac qalmır. Amma son illər nanosüzgəclər dəyişilmədiyindən Naxçıvan şəhərində içməli su təchizatında və suyun keyfiyyətində müəyyən problemlər yaranmışdır.

Araşdırmalar içməli suyun element tərkibi ilə insan orqanizminin elementar disbalansının qarşılıqlı əlaqəsini təsdiq edir. İçməli su təchizatı, suvarma, energetika və sənaye sahələrində su ehtiyatlarından daha səmərəli istifadə edilməli və hər damlası qiymətli olan suyun qənaətli istifadəsinə nəzarət gücləndirilməlidir.

Muxtar respublikada kəhriz, bulaq, artezian sularından və yeni suvarma sistemlərindən daha səmərəli istifadə etməklə əhalinin və regionun su təchizatı sistemini qoruyub saxlamaq olar.

**Fizzə MƏMMƏDOVA**
***kimya üzrə fəlsəfə doktoru, dosent***

## Qida mütəxəssisi Aynurə Qulamova:
## *“Təəssüf ki, artıq qatqısız çörək tapmaq çətinləşib...”*



*Çörək gündəlik rasionumuzda ən çox istifadə olunan qida məhsullarından biridir. Lakin son illərdə istehlakçılar arasında çörəyin tərkibi ilə bağlı narahatlıqlar artmaqdadır. Marketlərdə satılan çörəklərin tərkibindəki bəzi kimyəvi maddələr, bu məhsulun sağlamlığa təsiri barədə suallar doğurur. Bəs bu maddələr çörəyə niyə əlavə olunur? Onların sağlamlıq baxımından təhlükəsi varmı? Bu suallara aydınlıq gətirmək üçün Naxçıvan Qida Təhlükəsizliyi İnstitutunun Elmi araşdırmalar və təlim şöbəsinin müdiri Aynurə Qulamova ilə həmsöhbət olduq:*

***– Aynurə xanım, bildiyimiz kimi, çörək gündəlik həyatımızın ayrılmaz hissəsidir. Artıq istehlakçılar çörəyi tərkibində olan kimyəvi maddələrə görə seçərkən ehtiyatla yanaşırlar. Bəs bu maddələr insan sağlamlığına nə dərəcədə zərər vura bilər?***

– Ümumiyyətlə, yüksəkkeyfiyyətli və təzə çörəklər istehlakçılar tərəfindən daha çox qəbul edilir. Çörəyin qabığının rəngi və parlaqlığı, çörək qırıntılarının tekstura və yumşaqlığı mühüm keyfiyyət amilləridir. Çörəyin bayatlanması onun tərkibinə və qida dəyərinə təsir etməsə də, onun istehlakına mənfi təsir göstərir. Çünki qida maddələrinin tərkibi və qida dəyəri ilə yanaşı, istehlakı baxımından da xarici görünüşü mühüm əhəmiyyət kəsb edir. Bu səbəbdən çörəyin keyfiyyətinin yaxşılaşdırılması, qida dəyərinin yüksəldilməsi və bayatlanmasını gecikdirmək üçün müxtəlif əlavələrin istifadəsi geniş vüsət almışdır.

Kimyəvi maddələr – məsələn, qoruyucu qatqılar, emulqatorlar və ya süni rəngləndiricilər uzunmüddətli istifadə zamanı orqanizmdə müxtəlif təsirlərə səbəb ola bilər. Bunlar arasında allergik reaksiyalar, hormonal pozğunluqlar, həzm problemləri, hətta bəzi hallarda xərçəng riski də artır. Lakin bu, doza və maddənin növündən asılıdır.

Çörəkbişirmə zamanı istifadə olunan bütün qida əlavələrinə Səhiyyə Nazirliyi tərəfindən icazə verilən miqdarda əlavə edilməsi sağlamlığa zərər vermir. Bu zaman xammala əlavə edilmə standartlarına əməl olunmalıdır. Bu standart FAO/ÜST-ün qida əlavələri üzrə birgə ekspert komitəsi (Ümumdünya Səhiyyə Təşkilatı və Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı) tərəfindən müəyyən edilmişdir.

***– Keyfiyyətli və keyfiyyətsiz çörəyi necə ayırd etmək olar?***

– Keyfiyyətli çörək təbii qoxulu, boşluqsuz, elastik olmalıdır. İçliyin vəziyyəti kəsilmiş çörəkdə müəyyən edilir. İçliyi yaxşı bişmiş, bərabər məsaməli, barmaqla yoxladıqda nəm və ələyapışqan olmamalı, üzərinə yüngül basdıqda elastik olub öz əvvəlki formasını almalıdır. Kəsildikdə ovulmamalı, tez bayatlamamalı, kənar iy və dada malik olmamalıdır.

***– Qlütensiz çörəklərin tərkibində də qatqılar ola bilərmi?***

– Çörək zülal və əvəzolunmaz amin turşuları ilə zəngindir. Amma elə insanlar var ki, bir sıra fizioloji səbəblərdən bəzi dənli bitkilərdə olan zülalı həzm edə bilmirlər. Həmin insanlara qlütensiz pəhriz təyin edilir. Bununla belə son vaxtlar sağlam istehlakçılar arasında da qlütensiz çörəyə tələbat artmaqdadır. Qlütensiz çörəkdə də qatqılar ola bilər. Qlütensiz olması, sadəcə, buğda, arpa, çovdar kimi qlüten tərkibli taxılların istifadə olunmaması deməkdir. Amma çörəyin dadını, toxumasını, rəf ömrünü yaxşılaşdırmaq üçün bir sıra qatqılar əlavə edilə bilər, məsələn, stabilizatorlar, emulqatorlar, şəkər və ya şirinləşdiricilər, rəngləyici və ya konservantlar bura aiddir.

***– Belə çıxır ki, qatqısız çörək tapmaq getdikcə çətinləşir?***

– Bəli, təəssüf ki, artıq qatqısız çörək tapmaq çətinləşib. Məhz buna görə də insanlar çalışmalıdırlar ki, ev şəraitində, təbii inqrediyentlərdən istifadə etməklə çörək hazırlasınlar və ya etibarlı istehsalçılardan qatqısız məhsullar alsınlar.

***– Qablaşdırılmış çörəklərin üzərindəki “istehlak müddəti” niyə bəzən həddən artıq uzun göstərilir?***

– Bu, əsasən, çörəyin tərkibinə əlavə olunan qoruyucu maddələrlə bağlıdır. Belə maddələr çörəyin kiflənməsinin və mikroorqanizmlərin yaranmasının qarşısını alır. Nəticədə, məhsul uzun müddət xarab olmadan saxlanıla bilir. Lakin bu, təbii məhsul olmadığının və kimyəvi qatqıların yüksək olduğunun göstəricisidir.

***– İstehlakçılar hansı hallarda istehsalçını məsuliyyətə cəlb edə bilərlər?***

– İstehlakçıların hüquqları “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” qanunla qorunur və bu hüquqlar pozulduqda onlar aidiyyəti qurumlara müraciət edə bilərlər. Məsələn, etiketsiz və ya yanlış etiketli məhsul təqdim olunarsa, yəni tərkibi, istifadə müddəti, istehsal tarixi və ya saxlanma qaydaları barədə məlumat natamam və ya yalan olarsa, bu, istehsalçının məsuliyyət daşımasına əsas verir. Eyni zamanda istifadə müddəti keçmiş məhsulun satılması, yaxud məhsulun istehlakından sonra sağlamlıq problemi yaranması (məsələn, qida zəhərlənməsi, allergik reaksiya və s.) hallarında da istehlakçılar Qida Təhlükəsizliyi Agentliyinə və ya istehlakçıların hüquqlarının müdafiəsini təmin edən orqanlara müraciət edə bilərlər.

***– Son olaraq bu sahədə dövlət nəzarəti necə təşkil olunur?***

– Çörək və digər qida məhsullarının keyfiyyəti və təhlükəsizliyi dövlət nəzarətində saxlanılır. Bu sahəyə əsas nəzarəti Qida Təhlükəsizliyi Agentliyi həyata keçirir. Agentlik muxtar respublika ərazisində fəaliyyət göstərən çörək istehsalı müəssisələrində mütəmadi olaraq monitorinqlər aparır. Nəzarət tədbirləri zamanı istehsal olunan çörək məmulatlarından nümunələr götürülür və onlar Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyalarına təqdim olunur. Burada nümunələr müasir avadanlıqlarla analiz edilir, tərkibindəki maddələr, qatqılar və mikrobioloji göstəricilər yoxlanılır. QTA-nın məqsədi istehlakçının təhlükəsiz qida məhsulları ilə təmin olunmasını, eyni zamanda istehsal proseslərində gigiyenik və texniki tələblərə əməl olunmasını təmin etməkdir.

**Elnurə CƏFƏROVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## DÜNYA xəbərləri

### “Google” alış-verişdən əvvəl virtual geyim sınağı funksiyasını işə salıb

“Google” onlayn alış-veriş sahəsində növbəti addım ataraq geyimlərin virtual şəkildə sınanması funksiyasını test rejimində istifadəyə verib. Yeni funksiyadan istifadə etmək üçün “Search Labs” bölməsində onu aktivləşdirmək, tam boyuna fotoşəklini yükləmək, “Google Shopping” vasitəsilə geyimi seçmək və uyğun mallarda “Sına” düyməsinə basmaq lazımdır. Bu xidmət üçün “Google” hesabı tələb olunur. Şəklin işlənməsi 10-15 saniyə çəkir. Bütün məlumatlar şifrlənmiş formada saxlanılır.

Mütəxəssislər bu texnologiyanın üç əsas üstünlüyünü vurğulayırlar: məhsulun qaytarılmasının azalması (proqnozlara görə 25 faizə qədər), alışa çevrilmə faizinin artması və fərdiləşdirmə imkanlarının genişlənməsi. “Bu cür texnologiyalar elektron ticarətin qaydalarını dəyişəcək”, – deyə “RetailTech” analitiki hesab edir.

### Aşağıbüdcəli aviaşirkətlər artıq gələn ildən ayaqüstü yerlər təklif edə bilər

Aşağıbüdcəli aviaşirkətlər ayaq üstə duracaq sərnişinlər üçün nəzərdə tutulmuş yerləri 2026-cı ildə istifadəyə verə bilər. Bu yalnız təhlükəsizlik sınaqlarından keçdikdən sonra mümkün olacaq. “Amerikan dağları” üslubunda yumşaq döşəməli bu oturacaqlar sərnişinlərə oturmağa deyil, yalnız əyilməyə imkan verir. Bu isə hər reysin sərnişin tutumunu əlavə 20 faiz artırmağa imkan yaradır. “Skyrider” adlı ayaqüstü oturacaqlar ilk dəfə 2018-ci ildə İtaliyanın “Aviointeriors” şirkəti tərəfindən təqdim edilib. Bu oturacaqların yalnız iki saatdan az davam edən uçuşlar üçün nəzərdə tutulduğu bildirilib. “Ryanair” şirkətinin baş direktoru Maykl O'Liri 2012-ci ildən bu ideyanı dəstəkləyir və hesab edir ki, belə yerlər üçün biletin qiyməti cəmi 1 funt sterlinq ola bilər.

### Alimlər avtomobil güzgüləri vasitəsilə günəş enerjisinin hasilatını 40 faiz ucuzlaşdırıblar

Avstraliyalı alimlər günəş enerjisinin dəyərini 40 faiz azaltmağa imkan verən yüngül plastik güzgülər hazırlayıblar.

Avtomobillər üçün nəzərdə tutulmuş texnologiya indi kənd təsərrüfatı və sənayedə torpağın emalı, taxılın qurudulması, suyun duzsuzlaşdırılması və digər proseslərdə xərclərin azaldılmasına, eləcə də karbon izi səviyyəsinin aşağı salınmasına kömək edəcək.

Cənubi Avstraliya Universitetində (UniSA) hazırlanmış yeni güzgülər adi şüşə güzgülərdən 50 faiz yüngüldür, onları qatlamaq mümkündür və xüsusi alüminium-silisium örtüyü sayəsində adi güzgülərdəki kimi yüksək əksetdirmə qabiliyyətinə malikdir. İşığı elektrik enerjisinə çevirən günəş panellərindən fərqli olaraq, qurğular günəşin işığını deyil, onun istiliyini tutur. Daha sonra əksetdiricilər istilik qəbuledicisini qızdırır və bu qurğu günəş şüalarını birbaşa istilik enerjisinə çevirir.

Pilot layihə çərçivəsində hər biri 16 belə güzgüdən ibarət olan iki qurğu sınaqdan keçiriləcək.

# Bilirsiniz necə ləzzətlidir?!

## Brend meyvəmiz – Çuxur göycəsi





Orta əsrlərdə səyyahlar tərəfindən “Meyvə cənnəti” adlandırılan Naxçıvan hər mövsümdə süfrələrimizi bəzəyən rəngarəng, çeşidli meyvələrlə zəngindir. Lakin bu meyvələr sırasında sırf bu bölgəyə məxsus olan göycənin öz yeri var. Kiçikdən-böyüyə hamının çox sevdiyi bu meyvə zəngin tərkibi, faydaları ilə də seçilir. Göycənin ən məşhur növü bazarlarda adla tanınan Çuxur göycəsidir.

Təkcə Naxçıvan dialektinə xas olan “göycə” sözündəki “göy” yeni mənasını ifadə edir ki, bu onun, əsasən, kal halda yeyilməyə başlanması ilə bağlıdır.

Doğma diyarın bərəkətli torpaqlarının məhsulu olan göycə Ümummilli Liderimiz Heydər Əliyevin də ən sevdiyi meyvələrdən idi. O deyirdi: ***“... Bir meyvə var burada Bakıda buna alça deyirlər, Naxçıvanda ona göycə deyirlər. Göycə xüsusi bir meyvədir, bilirsiniz, necə ləzzətlidir?!”***

Faydaları saymaqla bitməyən göycənin bazarlarda adla tanınan brendə çevrilmiş növü olan Çuxur göycəsi haqqında məlumatı elə uzun illərdir, bu qədim məhəllədə yaşayan Məhəmməd Məmmədovdan aldıq. 67 yaşlı müsahibim deyir ki, dədə-babadan bu həyətdə göycə ağacları olub. Əsasən, payız-yaz aylarında göycə ağacları əkilir. Arpa biçini vaxtı peyvəst vurulur. Peyvəst olunan ağaclardan bəziləri 1 il müddətində ilk nübarını gətirə bilir. May ayından başlayaraq göycə artıq yığılmağa başlanır.

Ağacların baxımına xüsusi diqqətlə yanaşan müsahibim göycənin çox qulluq tələb etmədiyini, lakin vaxtlı-vaxtında suvarılmalı olduğunu, şirələndiyi halda bunu önləmək üçün dərman vasitələrindən istifadə etdiyini bildirir.

Göycənin növlərindən söz açan Məhəmməd əmi deyir ki, göycənin, əsasən, alça və almaxaradan (gavalı) peyvəst (calaq) olunan növləri var ki, bunlardan alça sortu olan daha məsləhətlidir. Bu zaman meyvə daha iri olur. Almaxara sortu isə digərinə nisbətən balaca olur.

Alça ilə göycənin dadının tam fərqləndiyini bildirən müsahibim deyir ki, buranın torpağı o qədər bərəkətli, suyu o qədər minerallarla zəngindir ki, burada yetişən göycənin heç bir yerdə təkrarı yoxdur.

Məhəmməd əminin sözlərinə görə, bu meyvə o qədər faydalıdır ki, hər kim yesə, şəfa tapar. Belə ki, bu möcüzəvi meyvə orqanizmin immun sistemini və birləşdirici toxumaları gücləndirir, həzmi yaxşılaşdırır, qanı duruldur, susuzluğu yatırır. Çəki artıqlığından və şəkərli diabet xəstəliyindən əziyyət çəkən insanlar rahat şəkildə göycə yeyə bilərlər.

Müsahibim bildirir ki, daha çox təzə halda yeyilsə də, göycədən kompot, mürəbbə, lavaşana, turşu və sair hazırlamaq olur. Satış etməsə də, öz həyətinin bu əvəzsiz barını qohum-qonşu, dost-tanışa sovqat verən Məhəmməd əmi bizi də baxdıqca ağız sulandıran, yedikcə dadından doyulmayan Çuxur göycəsinə qonaq edir. Məhsulunuz bərəkətli, ruziniz bol olsun, Məhəmməd əmi.

Qeyd edək ki, Naxçıvan şəhərində ənənəvi olaraq keçirilən “Göycə” festivalı bu il 30-31 may tarixlərdə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçiriləcək və muxtar respublikamızın müxtəlif bölgələrindən gələn zəhmətkeş insanlar ərsəyə gətirdikləri mövsümün ləziz meyvəsini festival iştirakçılarına təqdim edəcəklər.

**“Şərq qapısı”**

## “Araz-Naxçıvan” Avropada!



Misli Premyer Liqasında XXXV tura start verilib. İlk oyun günündə üç matç baş tutub. Bu turda muxtar respublikanın “Araz-Naxçıvan” komandası səfərdə “Şamaxı”ya qalib gəlib – 1:0. Komandamızdan Felipe Santos 44-cü dəqiqədə rəqibi məyus edib. Xallarının sayını 58-ə çatdıran Naxçıvan təmsilçisi üçüncü pillədə qərarlaşıb və çempionatın bürünc mükafatçısı olub. “Qırmızı-ağlar” Azərbaycanı UEFA Konfrans Liqasında təmsil edəcək.

## Futzal turnirində növbəti oyunlar keçirilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən “Şərq qapısı”na verilən məlumata görə, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda futzal turniri davam edir. İlham Əliyev adına Olimpiya İdman Kompleksində cari oyun günü 8 görüş keçirilib.

Nəticələrə əsasən Ali Məclis, Ali Məhkəmə, Mədəniyyət, Təhsil, Fövqəladə Hallar, Ədliyyə nazirlikləri, Dövlət Energetika Xidməti və Dövlət Vergi Xidmətini təmsil edən komandalar qələbə qazanıblar.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Futzal Federasiyası və Naxçıvan Futbol Federasiyası tərəfindən birgə təşkil olunan turnirdə 17 komanda 4 qrupda mübarizə aparır.

## Təzəkənd avtomobil yolunda əsaslı təmir işləri davam edir



Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq Şərur rayonunun Təzəkənd avtomobil yolunda əsaslı təmir işləri aparılır. İşlərin aparılması həmin bölgədə infrastrukturun yaxşılaşdırılmasına yönəlmiş mühüm bir addımdır.

Ümumi uzunluğu 6,3 kilometr olan yolda ikinci qat asfalt işləri həyata keçirilir. Belə ki, yolun 4,5 kilometrlik hissəsinə ikinci qat asfalt örtüyü verilib. Hazırda işlər davam etdirilir. Qeyd edək ki, bu cür layihələr kəndlərarası əlaqəni gücləndirmək, nəqliyyatın rahatlığını artırmaq və iqtisadi fəallığı dəstəkləmək məqsədi daşıyır. Yolun əsaslı təmir olunması həm yerli əhali, həm də bölgədən keçənlər üçün daha təhlükəsiz və keyfiyyətli hərəkət imkanı yaradacaq.

### *İtmişdir*

Naxçıvan şəhəri, M.Mirişli küçəsi, ev 7 ünvanında Vəliyeva Firəngiz Çölü qızının adına olan 1930 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Gənzə kənd sakini Muxtarov Yusif Həsən oğlunun adına olan AA-011094 inventar nömrəli torpaq sahəsinin plan-ölçüsü və MH-0042183 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Quluyev Ramal Həzi oğluna məxsus Naxçıvan şəhəri, Əliqulu Qəmküsar küçəsi, ev 22, mənzil 2-nin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Oğlanqala kəndində yerləşən Şahbazov Əkbər Fərəməz oğluna məxsus fərdi yaşayış evinin 102013005620-1032979 reyestr nömrəli texniki pasportu və hüquqlarının dövlət qeydiyyatından çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vayxır kənd sakini Səfərov Sevdi Dünyamalı oğlunun adına olan JN-$167^{A}$ və JN-$167^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Novruzov İlyas Tağı oğlunun adına olan 67 BE 840 dövlət nömrə nişanlı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Seyidov Abdulla Mirhəsən oğlunun adına olan JN-192 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, H.Rəhmanov küçəsi, döngə 2, ev $1^{A}$-da yaşamış Bağırov Mirzəbağır Möhsün oğlunun adına olan 551 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır

***

Babək rayonu, Şıxmahmud kəndində yaşamış Teymurova Əfruz Yusif qızına məxsus $506^{A}$ nömrəli, 103013018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkəndində yaşamış Fərzəliyev İbrahim İsmayıl oğluna məxsus JN-$155^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 140

Nömrəyə məsul: Nail Əsgərov, Gülcamal Tahirova, Cavanşir Bağırlı
Dizayner: Lətif Zeynalov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.